**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “AZƏRBAYCANDA KİÇİK VƏ ORTA SAHİBKARLIQ MİQYASINDA İNNOVATİV FƏALİYYƏTİN TƏHLİLİ VƏ TƏŞVİQİ MƏSƏLƏLƏRİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Mustafayev Tərlan İlham oğlu**

**BAKI – 2020**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh**

**______________________ imza**

**"___" ______________ 2020-ci il**

# "AZƏRBAYCANDA KİÇİK VƏ ORTA SAHİBKARLIQ MİQYASINDA İNNOVATİV FƏALİYYƏTİN TƏHLİLİ VƏ TƏŞVİQİ MƏSƏLƏLƏRİ"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060407 – Menecment

**İxtisaslaşma:** İnnovasiyaların və layihələrin idarə edilməsi

**Qrup:** 222

**Magistrant:**
**Mustafayev Tərlan İlham oğlu**

**______________________imza**

**Elmi rəhbər:**
**i.ü.f.d., dos. Hüseynli Aytən Təyyar qızı**
**____________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Şamxalova Samirə Oqtay qızı**
**______________________imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**___________________imza**

**BAKI – 2020**

## Elm andı

Mən, Mustafayev Tərlan İlham oğlu and içirəm ki, "Azərbaycanda kiçik və orta sahibkarlıq miqyasında innovativ fəaliyyətin təhlili və təşviqi məsələləri" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**"AZƏRBAYCANDA KİÇİK VƏ ORTA SAHİBKARLIQ MİQYASINDA İNNOVATİV FƏALİYYƏTİN TƏHLİLİ VƏ TƏŞVİQİ MƏSƏLƏLƏRİ"**


**XÜLASƏ**

**Mövzunun aktuallığı: Müasir iqtisadiyyatda elm, texnologiya və innovasiya sektorlarında sürətli artım və genişlənmə, resurs əsaslı bazarlarda isə kiçilmə müşahidə olunur. İqtisadiyyatı əsasən neft sənayesi üzərində qurulan Azərbaycan Respublikasında, qlobal bazarda neft qiymətlərinin rekord həddə aşağı düşməsi fonunda KOS miqyasında innovativ fəaliyyətin mövcud vəziyyətinin təhlili və təşviqi olduqca aktualdır.**

**Tədqiqatın məqsədi: Tədqiqatın əsas məqsədi kiçik və orta sahibkarlığın təkamülü, iqtisadiyyatda rolu, bu sahədə innovativ fəaliyyətinin təşviq mexanizmləri üzrə dünya praktikasının öyrənilməsi, Azərbaycanda KOS üzrə mövcud vəziyyətinin təhlil olunması və təşviqi üzrə təkliflər hazırlanması, bu sahədə elmi bazanın gücləndirilməsindən ibarətdir.**

**İstifadə olunan tədqiqat metodları: Tədqiqat zamanı analitik və müqayisəli təhlil, induksiya və sistemli yanaşma metodlarından istifadə olunmuşdur.**

**Tədqiqatın informasiya bazası: Tədqiqat işində bir sıra yerli və xarici məqalə və kitablardan nəzəri mənbə olaraq istifadə edilmişdir. Bundan əlavə, beynəlxalq təşkilatların tərtib etdiyi hesabatlardan, statistik məcmulardan, müvafiq internet resurslarından məlumatlar əldə edilmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: Azərbaycanda və dünyada sahənin nisbətən yeni olması, şərtlərin sürətlə dəyişməsi, vahid nəzəri-metodoloji əsasın olmaması, fərqli ölkələrdə kiçik və orta sahibkarlığa müxtəlif yanaşmaların olması müvafiq informasiyaların əldə edilməsində və təhlilində məhdudiyyətlər yaratmışdır.**

**Tədqiqatın elmi yeniliyi və pratiki nəticələri: Ölkədə kiçik və orta sahibkarlığın müasir vəziyyətinin təhlili və onun inkişafının qiymətləndirilməsi; kiçik biznesə dövlət dəstəyinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi; KOS miqyasında innovativ fəaliyyətin təhlil edilməsi, təşviq yollarının araşdırılması və təkliflər hazırlanması; dünya və region ölkələrinin təcrübəsinin öyrənilməsi.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Ölkədə innovativ sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi və onun səmərəliliyinin artırılması, innovasiya siyasətinin inkişaf etdirilməsi, innovativ fəaliyyətin təşviqi mexanizmlərinin effektivliyinin artırılması, innovativ sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisələrin fəaliyyətinin qiymətləndirilməsi.**



***Açar sözlər: kiçik və orta sahibkarlıq, innovasiya, təşviq mexanizmləri, dünya təcrübəsi***

**“ANALYSIS AND PROMOTION OF INNOVATIVE ACTIVITY ON THE SMALL AND MEDIUM ENTREPRENEURSHIP SCALE IN AZERBAIJAN”**

## SUMMARY

**The actuality of the subject: In modern economy, there is rapid growth and expansion in the science, technology and innovation sectors, and contraction in resource-based markets. For Azerbaijan, whose economy is mainly based on the oil industry, the analysis and promotion of innovative activities on the scale of small and medium entrepreneurship is, indeed, relevant against the background of a record drop in oil prices on the global market.**

**Purpose of the study: The main purpose of the research is to study the evolution of small and medium enterprises, their role in the economy, study foreign experience on mechanisms to promote innovative activities in this field, analyze the current situation and promote SME innovation in Azerbaijan.**

**Used research methods: Analytical and comparative analysis, induction and systematic approach methods were used during the research.**

**Information database of research: A number of local and foreign articles and books were used as theoretical sources in the research. In addition, information was obtained from reports prepared by international organizations, statistical bulletins, and relevant internet resources.**

**Research Restrictions: Being a relatively new field in Azerbaijan and the world, rapid changes in conditions, lack of a single theoretical and methodological basis, different approaches to small and medium enterprises in different countries have created limitations in obtaining and analysing of relevant information.**

**Scientific novelty and practical results of research: Analysis of the current state of SME in the country and assessment of its development; identification of the main directions of state support for small business; Analysis of innovative activities on the SME scale, research of ways of promotion and preparation of proposals; study of the experience of countries of the world and the region.**

**Application areas of research: To develop innovative entrepreneurship in the country and increase its efficiency; to develop innovation policy and increase the effectiveness of innovation promotion mechanisms; to assess the activities of enterprises engaged in innovative entrepreneurship.**

***Keywords: small and medium business, innovation, incentive mechanisms, foreign experience***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **Aİ** | Avropa İttifaqı |
| **CCBCC** | China Center for Business Cooperation and Coordination |
| **CSMEO** | China Small and Medium Enterprises Organization |
| **ETTKİ** | Elmi tədqiqat və təcrübə konstruktor işləri |
| **EUREKA** | European Research Coordination Agency |
| **IBOC** | International Business Opportunities Center |
| **KOM** | Kiçik və Orta Müəssisələr |
| **KOS** | Kiçik və Orta Sahibkarlıq |
| **KOSGEB** | Küçük ve Orta ölçekli Sanayiyi Geliştirme Başkanlığı |
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |
| **MEST** | Ministry of Education, Science and Technologies of Korea |
| **MKE** | Ministry of Knowledge Economy of Korea |
| **MRC** | Market Research Canada |
| **NDRC** | National Development and Reforms Commission (China) |
| **RIM** | Research Intensity Metric |
| **ROII** | Return on Innovation Investment |
| **SBA** | Small Business Agency (USA) |
| **SBIC** | Small Business Investment Corporation (USA) |
| **SBIR** | Small Business Innovation Research Program (USA) |
| **SBS** | Small Business Service (United Kingdom) |
| **SENET** | Small Enterprise Information & Resources Network (India) |
| **SMEA** | Small and Medium Enterprises Agency of Japan |
| **SMRJ** | Organization for SME and Regional Innovation of Japan |
| **ÜDM** | Ümumi Daxili Məhsul |

## MÜNDƏRİCAT


**GİRİŞ....................................................................................... 8**

**I FƏSİL. AZƏRBAYCANDA KİÇİK VƏ ORTA SAHİBKARLIQ ANLAYIŞI ........................................................................ 12**

1.1. Kiçik və orta sahibkarlığın (KOS) təsnifatı............................ 12

1.2. KOS fəaliyyətində dünya təcrübəsi.......................................... 14

1.2.1. İnkişaf etmiş qərb ölkələrində KOS fəaliyyəti......................... 17

1.2.2. İnkişaf etmiş şərq ölkələrində KOS fəaliyyəti......................... 25

1.2.3. MDB ölkələrində KOS fəaliyyəti............................................ 28

**II FƏSİL. SAHİBKARLIQ FƏALİYYƏTİNDƏ İNNOVASİYALARIN TƏŞKİLİ ....................................... 33**

2.1. İnnovativ sahibkarlıq formaları................................................ 33

2.2. İnnovativ sahibkarlıqla məşğul olan şirkətlərin qiymətləndirilməsi ................................................................ 40

**III FƏSİL. KİÇİK VƏ ORTA SAHİBKARLIQDA İNNOVATİV FƏALİYYƏTİN TƏŞVİQİ ................................................. 53**

3.1. Dünya təcrübəsində KOS miqyasında innovativ fəaliyyətin təşviqi mexanizmləri............................................................. 53

3.2. Azərbaycanda KOS miqyasında innovativ fəaliyyətin təşviqi üzrə tədqiqat........................................................................... 61

**NƏTİCƏ VƏ TƏKLİFLƏR ................................................ 72**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI........... 76**

Cədvəllərin siyahısı................................................................. 80

Qrafiklərin siyahısı................................................................... 80

# GİRİŞ

**Mövzunun aktuallığı:** Kiçik və orta müəssisələr bazar iqtisadiyyatının hərəkətliliyini və dinamikliyini təmin edən, onun əsas elementlərindən biri hesab olunan azad rəqabətin formalaşması və inkişafında xüsusi yer tutur. Sahibkarlığın inkişafı, xüsusilə, kiçik və orta sahibkarlıq subyektlərinin innovativ fəaliyyətə cəlb olunması iqtisadiyyatın çoxşaxəliyi, dayanıqlılığı və dinamikliyinin, əhalinin yüksək rifah səviyyəsinin və gəlir bərabərliyinin təmin olunmasında, qlobal rəqabət şəraitində sürətlə dəyişən bazar şərtlərinə uyğunlaşmasında, o cümlədən, bu istiqamətdə ölkənin innovasiya siyasətinin effektiv şəkildə həyata keçirilməsində müstəsna əhəmiyyət daşıyır. Göründüyü kimi, kiçik və orta sahibkarlığın inkişafının məntiqi nəticələri dövlətin də bir sıra maraqları ilə üst-üstə düşür. Kiçik və orta sahibkarlığın iqtisadiyyatdakı payına və roluna baxdıqda, inkişaf etmiş ölkələrdə KOS-la bağlı göstəricilərin olduqca yüksək, inkişafda olan ölkələrdə isə bir qayda olaraq daha aşağı olduğu aydın şəkildə nəzərə çarpır. İnformasiya iqtisadiyyatı, rəqəmsal transformasiya və qlobal rəqabət fonunda ölkə iqtisadiyyatının inkişafı, dövlət maraqlarının qorunması və dövlətin funksiyalarını effektiv şəkildə həyata keçirə bilməsi üçün ölkədə sahibkarlıq və innovasiya ekosistemlərinin inkişafı dövlətlərin maraq dairəsindədir. Sözügedən sektorların inkişafı, infrastrukturun gücləndirilməsi istiqamətində dövlətlər əllərində olan müxtəlif tənzimləmə alətləri ilə müvafiq təşviq mexanizmləri həyata keçirirlər. Dövlətin sahibkarlıq sahəsində innovasiya siyasətinin başlıca məqsədi müxtəlif məhsul, proses və ya təşkilati innovasiyaları, ideyaları dəstəkləmək, təşviq etməkdir. İnnovasiya dəstəyi alan kiçik və orta sahibkarlıq subyektlərinin bazar performansları bu dəstəkdən məhrum qalan KOS-lara nisbətdə müsbət mənada əhəmiyyətli dərəcədə fərqlənir (Foreman-Peck, 2013). Bununla belə, sözügedən təşviq mexanizmlərin uğurlu olmasına təsir edən bir sıra mühit amilləri də vardır ki, bu sahədə atılan addımların ətraflı təhlilini və dünya təcrübəsinin hərtərəfli araşdırılmasını zəruri edir. Eyni alətlər və eyni mexanizmlər fərqli mühitlərdə fərqli nəticələr doğura bilir. Təşviq mexanizmlərinin effektiv fəaliyyət göstərməsi üçün mühit amillərinin, yerli infrastrukturun, əlaqəli sahələrin

vəziyyətinin nəzərə alınması, eləcə də yüksək siyasi iradə və qətiyyət həlledici rol oynayır.

Dünyanın müasir iqtisadi mənzərəsinə nəzər saldıqda, texnika, texnologiya və innovasiya sektorlarında sürətli artım və genişlənmə, resurs əsaslı bazarlarda isə kiçilmə müşahidə olunur. Dolayısı ilə, iqtisadiyyatı, əsasən, neft sənayesi üzərində qurulan Azərbaycan Respublikasında, qlobal bazarda neft qiymətlərinin rekord həddə aşağı düşməsi fonunda kiçik və orta sahibkarlıq miqyasında innovativ fəaliyyətin mövcud vəziyyətinin təhlili, dünyada tətbiq olunan təşviq mexanizmlərinin araşdırılması və yerli implementasiya imkanlarının dəyərləndirilməsi hazırda ən aktual mövzulardan biridir.

Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı hal-hazırda dövlətin də gündəmində olan ən vacib məsələlərdən biri olaraq dəyərləndirilir və bu ən yüksək səviyyəli dövlət proqramlarında, strateji planlarda öz əksini tapmışdır. Dövlət artıq bu sahədə bir sıra əhəmiyyətli addımlar da atmışdır. Bununla belə, ölkədə sahibkarlıq və innovasiya infrastrukturu yetəri qədər güclü deyildir. Atılan addımların effektiv olması üçün probləmə kompleks yanaşma, sahibkarlıqla paralel olaraq əlaqəli sahələrin inkişafı, hərtərəfli infrastruktur quruculuğu tələb olunur. Unutmamaq lazımdır ki, iqtisadiyyatın bütün sahələri bir biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir və innovativ sahibkarlığın inkişafı elm və innovasiya, təhsil, maliyyə və ticarət infrastruktur gücləndirilmədən, müvafiq qanunvericilik bazası formalaşdırılmadan mümkün deyildir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Son onillikdə dünyada olduğu kimi Azərbaycanda da Kiçik və Orta Sahibkarlığın inkişafına maraq artmış, dövlət bu istiqamətdə bir sıra addımlar atmışdır. Problemin qoyuluşu dövlətin kiçik və orta sahibkarlıq səviyyəsində innovativ fəaliyyəti təşviq etmə mexanizmlərinin və KOS üzrə ölkədə cari vəziyyəti müqayisəli təhlil əsasında qiymətləndirməkdən ibarətdir. Tədqiqat zamanı kiçik və orta sahibkarlığın nəzəri-metodoloji əsasları, müxtəlif inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin bu sahədə son dövrlərdə atdıqları addımlar araşdırılmış, tətbiq etdikləri təşviq mexanizmləri təhlil olunmuş, eləcə də, Azərbaycandakı cari vəziyyət öyrənilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın əsas məqsədi kiçik və orta sahibkarlığın təkamülü, iqtisadiyyatda rolu və onların innovativ fəaliyyətinin təşviq mexanizmləri üzrə dünya praktikasının öyrənilməsi, Azərbaycanda kiçik və orta sahibkarlığın mövcud vəziyyətinin təhlil olunması və bu sahədə innovativ fəaliyyətin təşviqi üzrə təkliflər hazırlanması, bu sahədə elmi bazanın gücləndirilməsindən ibarətdir.

Dissertasiya işinin məqsədinə uyğun olaraq aşağıdakı vəzifələr qarşıya qoyulmuş və həll edilmişdir:

- kiçik və orta sahibkarlığın formalaşması və inkişaf qanunauyğunluqlarını aşkar etmək;
- dünya təcrübəsinə uyğun olaraq kiçik və orta müəssisələrin təşkilinin və səmərəli fəaliyyətinin nəzəri metodoloji əsaslarını öyrənmək;
- kiçik və orta biznesin inkişaf mərhələlərini tədqiq etmək və xüsusiyyətlərini aşkara çıxarmaq
- kiçik sahibkarlıq subyektlərinin maliyyələşdirilməsi meyarlarını müəyyən etmək
- ölkənin sosial - iqtisadi inkişafında kiçik və orta sahibkarlığın rolunu araşdırmaq;
- kiçik və orta sahibkarlığın dövlət tənzimlənməsi imkanlarını aşkara cıxarmaq;
- kiçik və orta sahibkarlıq miqyasında innovativ fəaliyyəti təhlil etmək və təşviq yollarını araşdırmaq;
- innovativ sahibkarlıq formalarını araşdırmaq və innovativ sahibkarlıqla məşğul olan şirkətlərin fəaliyyətini qiymətləndirmək.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti müxtəlif inkişaf etmiş və inkişafda olan dünya ölkələri, o cümlədən, Azərbaycan Respublikasıdır. Tədqiqatın predmeti isə bu dövlətlərin kiçik və orta sahibkarlıq infrastrukturunun inkişafı istiqamətində fəaliyyətləri və innovasiya siyasətləridir.

**Tədqiqat metodları:** Dissertasiya işində analitik və müqayisəli təhlil, sintez, deduksiya və sistemli yanaşma metodları tətbiq edilmiş, eləcə də Azərbaycan Dövlət Statistika Komitəsinin statistik göstəriciləri, müxtəlif tərəfsiz beynəlxalq

təşkilatların hesabatları, iqtisadçı ekspertlərin fikirləri, o cümlədən, müxtəlif yerli və xarici ədəbiyyatlardan, internet resurslarından istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası:** Tədqiqat işində bir sıra yerli və xarici məqalə və kitablardan nəzəri mənbə olaraq istifadə edilmişdir. Bundan əlavə, beynəlxalq təşkilatların tərtib etdiyi hesabatlardan, statistik məcmulardan, müvafiq internet resurslarından məlumatlar əldə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Azərbaycanda və dünyada innovativ sahibkarlığın nisbətən yeni sahə olması, şərtlərin sürətlə dəyişməsi, vahid nəzəri-metodoloji əsasın olmaması, fərqli ölkələrdə kişik və orta sahibkarlığa müxtəlif yanaşmaların olması müvafiq informasiyaların təmin edilməsində və təhlilində məhdudiyyətlər yaratmışdır.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqatın elmi yeniliyi aşağıdakılardır:

- Azərbaycan Respublikasında bazar sisteminin yeni strukturlarının formalaşmasında kiçik və orta sahibkarlığın rolu və xüsusiyyətlərinin aşkarlanması;
- ölkədə kiçik və orta sahibkarlığın müasir vəziyyətinin təhlili və onun inkişafının qiymətləndirilməsi;
- ölkənin regionlarında kiçik və orta sahibkarlığın inkişafının tədqiq edilməsi-kiçik biznesin dövlət tərəfindən dəstəklənməsinin əsas istiqamətlərinin müəyyən edilməsi;
- kiçik və orta sahibkarlıq miqyasında innovativ fəaliyyəti təhlil edilməsi, təşviq yollarının araşdırılması və təkliflər hazırlanması;
- dünya və region ölkələrinin təcrübəsinin öyrənilməsi.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Tədqiqatın nəticələri ölkədə innovativ sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsində və onun səmərəliliyinin artırılmasında, innovasiya siyasətinin inkişaf etdirilməsində, innovativ fəaliyyətin təşviqi mexanizmlərinin effektivliyinin artırılmasında, eləcə də, innovativ sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisələrin fəaliyyətinin qiymətləndirilməsində tətbiq edilə bilər.

# I FƏSİL. AZƏRBAYCANDA KİÇİK VƏ ORTA SAHİBKARLIQ ANLAYIŞI

## 1.1. Kiçik və orta sahibkarlığın (KOS) təsnifatı

Qlobal təcrübə sübut edir ki, sahibkarlıq bazar iqtisadiyyatının mühüm tərkib hissəsidir və ölkədə sahibkarlığı inkişaf etdirmədən proporsional inkişafa nail olmaq mümkün deyil. Sahibkarlıq fəaliyəti ölkənin iqtisadi inkişaf tempini, ümumi milli məhsulun strukturunu və keyfiyyətini müəyyənləşdirir. Sahibkarlıq qabiliyyəti o deməkdir ki, materialların və ya intellektual mülklərin sahibləri ictimai fəaliyyətin müəyyən sahələrində daha çox yardımçı olurlar və müəyyən işlər görməyə daha çox meyillidirlər. Dövrün ehtiyaclarına cavab verən təhsil prosesində insanlar təşəbbüskarlıq bacarıqlarına yiyələnirlər. Daha dəqiq desək, sahibkarlıq qabiliyyəti, istehsalın bütün digər amillərini faydalar və xidmətlər yaratmaq üçün birləşdirməyə yönəlmiş bir növ insan kapitalıdır.

Sahibkarlıq fəaliyyəti, fayda əldə etmək üçün müstəqil, sistematik məhsuldar bir məhsul, xidmət və ticarət fəaliyyətidir. İqtisadi ədəbiyyatda sahibkarlıq fəaliyyəti ilə bağlı fərqli fikirlər tapmaq mümkündür.

Sahibkarlıq fəaliyyətinin elmi tədqiqatları R.Cantillon, A.Smith, J.B. Say, J. Thünen, J. Schumpeter, P. Drucker və başqaları kimi iqtisadçılar tərəfindən aparılmışdır.

“Sahibkarlıq” (ingiliscə business) anlayışı ilk dəfə 18-ci əsrdə ingilis bankir və iqtisadçısı R. Cantillon (1680-1734) tərəfindən istifadə edilmişdir. Cantillonun fikrincə, sahibkarlıq davamlı bir risk mühitində məhsul təklifi və tələbini əlaqələndirən iqtisadi fəaliyyətdir. Sahibkar dedikdə Cantillon, istehsalın bazara uyğunlaşmasını əldə edərək onu kapitala çevirən bir adam başa düşürdü. Kapitalın hərəkətinin son nəticəsi, bazarda sahibkarın istehsal etdiyi maya dəyərindən artıq bazar qiymətinə satılan məhsuldur. istehsal olunan məhsulun bazar qiyməti əvvəlcədən bilinmədiyi üçün sahibkar hər zaman kommersiya riski ilə üzləşir (A. Крутик, М. Решетова, 2009).

Dünyanın qabaqcıl alim və iqtisadçıları müxtəlif şəkildə, yəni, fərqli nöqteyi-

nəzərdən- iqtisadi, psixoloji, inzibati, fəlsəfi və s. -sahibkarlıq anlayışını izah edirlər.

L. Mises və F. Hackerin fikrincə, bir iş adamı insanların real ehtiyaclarını ödəmək üçün ən qənaətli variantları seçməlidir. Amerikalı alim, professor R. Heidrich, yeni bir şey yaratmaq prosesini sahibkarlıq dəyəri kimi təsvir edir, sahibkarı isə bu işə vaxt və enerji sərf edən, bütün psixoloji riskləri öz üzərinə götürən və qazanc əldə edən biri kimi təsvir edir. Amerikalı iqtisadçı I. Kirsner sahibkarı "tarazlaşdırıcı qüvvə" kimi təqdim edir və sahibkarın idarəetmə bacarığı, seçim azadlığı və qərar vermək kimi fərdi keyfiyyətlərinə diqqət yetirir. Fəlsəfi baxımdan sahibkarlıq xüsusi əhval-ruhiyyə, işgüzar romantizm forması, insanın imkanlarını reallaşdırmaq üçün bir vasitə kimi təsvir edilə bilər (Переверзев М., Лунева А., 2017).

Beləliklə, sahibkarlıq təşəbbüs, məsuliyyət və risk götürərək fərdi işin təşkili və idarə edilməsində innovasiyaların tətbiqinə əsaslanan aktiv iqtisadi fəaliyyətdir. Bu fəaliyyətin mərkəzində fəal insan amili dayanır.

Dünya təcrübəsində sahibkarlıq fəaliyyətinin əsas hissəsini kiçik və orta sahibkarlıq (KOS) təşkil edir. KOS hal-hazırda dünyada geniş yayılmış və il-ildən böyüyən işgüzar fəaliyyət sahələrindən biridir.

Kiçik və orta sahibkarlıq fəaliyyəti ilə bağlı vahid təsnifat yoxdur, belə ki, müxtəlif ölkələrin qanunvericiliyində kiçik və orta sahibkarlığın sərhədlərini müəyyən edən göstəricilər fərqlilik göstərir. Bununla belə, Avropa İttifaqına daxil olan ölkələrdə vahid təsnifatdan bəhs etmək mümkündür. Belə ki, ittifaqa daxil olan ölkələrin hər birində illik dövriyyəsi 10 milyon avronu aşmayan və işçilərinin sayı 10 nəfərdən 49 nəfərədək olan müəssisələr kiçik, illik dövriyyəsi 50 milyon avronu aşmayan və əməkdaşların sayı 50 nəfərdən 249 nəfərədək olan müəssisələr isə orta müəssisələr hesab edilir. Çin və Amerika Birləşmiş Ştatları kimi nəhəng iqtisadiyyatı olan ölkələrdə işçi sayı 100 nəfərədək olan müəssisələr kiçik, 1000 nəfərədək olanlar isə orta müəssisələr hesab olunur. Türkiyədə illik dövriyyəsi 5 milyon lirəni, və işçi sayı 50-ni aşmayan müəssisələr kiçik, illik dövriyyəsi 25 milyon lirə və işçi sayı 150-ni aşmayan müəssisələr orta müəssisələr hesab olunurlar.

Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin təsnifatı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli Qərarı ilə təsdiq edilmişdir (Cədvəl 1). Bu təsnifata əsasən işçilərinin sayı 10 nəfərədək və illik gəliri 200 min mantdan az olan subyektlər mikrosahibkar, işçilərinin sayı 11-50 nəfər , illik gəliri 200 nin manatdan 3 milyon manatadək olanlar kiçik sahibkar, işçilərinin sayı 51-250 nəfər, illik gəlirləri 3 milyon manatdan 30 milyon manatadək olanlar orta sahibkar hesab edilir.

**Cədvəl 1: Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları**

| **Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyaları** | **İşçilərinin orta siyahı sayı (nəfər)** | **İllik gəliri (İG) (min manat)** |
|---|---|---|
| Mikro sahibkar | 1 - 10 | İG ≤ 200 |
| Kiçik sahibkar | 11 - 50 | 200 < İG≤ 3 000 |
| Orta sahibkar | 51 - 250 | 3 000 < İG ≤ 30 000 |
| İri sahibkar | 251 və ondan yuxarı | 30 000 < İG |

**Mənbə:** Azərbaycan Respublikası Nazirlər Kabineti, https://cabmin.gov.az/az/document/3251/

## 1.2. KOS fəaliyyətində dünya təcrübəsi

Qərb ölkələrində KOS innovativ bazar potensialı üçün davamlı axtarış, müasir texnologiyalara cəmləşmə, məqsədə çatmaq üçün müxtəlif mənbələrdən vəsait cəlb etmək və istifadə etmək kimi prinsiplərə əsaslanan xüsusi, qabaqcıl, antibürokratik idarəetmə forması kimi müəyyən edilir (Хрупин И.М., 2012).

Əksər inkişaf etmiş ölkələrdə KOS-lar iqtisadi artım və məşğulluğun inkişafında liderdir. Beləliklə, Dünya Bankının məlumatına görə, inkişaf etmiş ölkələrdə KOS-ların ÜDM-də xüsusi çəkisi müvafiq olaraq 50% və 60%-dən çoxdur. Dünyanın inkişaf etməkdə olan ölkələri KOM-ların iqtisadi dayanıqlığını artırmaq, rəqabət qabiliyyətini artırmaq və iqtisadi fəallığı təmin etmək üçün sistematik tədbirlər görürlər. Nəticədə, rəqabətli bazar münasibətləri formalaşır, bu isə bazarda tələb-təklif tarazlığı yaradır, qiymətləri sabitləşdirir, məhsul və xidmətlərin rəqabət qabiliyyətini artırır, iqtisadi vasitələrdən səmərəli istifadə edilməsinə, dayanıqlı iqtisadiyyat və xarici təsirlərin sürətlə mənimsənilməsinə şərait yaradır. Buna görə də hazırkı qlobal kontekstdə həm inkişaf etmiş, həm də

inkişaf etməkdə olan ölkələr KOS-lar vasitəsilə öz iqtisadiyyatlarının böhranlara çevik uyğunlaşmasını təmin etməyə çalışırlar. İnkişaf etməkdə olan ölkələrdə əsas xidmət təminatçıları orta müəssisələrdir. KOS sahəsindəki qlobal tendensiyalardan biri də kiçik müəssisələrin dayanıqlılığını təmin etməklə onları orta sahibkarlıq səviyyəsinə qaldırmaq cəhdidir. Müəssisələrin iqtisadi dayanıqlığı təmin edildikcə onların rəqabət qabiliyyəti də artır.

Kiçik və orta sahibkarlıq - hər hansı bir inkişaf etmiş iqtisadi mexanizmin müstəsna elementi olan bir sektordur ki, onsuz iqtisadiyyat və bütövlükdə cəmiyyət normal şəraitdə inkişaf edə və genişlənə bilməz. KOS-ların bir sıra üstünlükləri vardır ki, bunlardan aşağıdakıları qeyd etmək olar:

- yerli bazarda fəaliyyət;
- bazar şəraitindəki dəyişikliklərə çevik reaksiya;
- alıcı ilə birbaşa münasibət;
- malların və xidmətlərin müəyyən bazarında məhdud ixtisaslaşma;
- başlanğıc kapitalı az olan bir işə başlamaq üçün əlverişli şərait;
- yeniliklərə yüksək uyğunlaşma;
- çox sayda insanı aktiv sahibkarlıq fəaliyyətinə cəlb etmək, onları yüksək keyfiyyətli iş və inkişaf etmiş bazar münasibətlərinin ehtiyacları ilə tanış etmək.

Bir çox xarici ölkələrdə KOS-lar daha sürətlə inkişaf edir, çünki dövlət orqanları kiçik müəssisələrə böyük əhəmiyyət verir və onları dövlət səviyyəsində dəstəkləyir. İnkişaf etmiş ölkələrdə böyük, kiçik və orta müəssisələrin əməkdaşlıq mövqeyi təşviq olunur, bundan əlavə, onlar yalnız ayrı-ayrı sahələrin ixtisaslaşma sektorunda və ən son inkişaflarda bir-birini tamamlayır (Переверзев М., Лунева А., 2017).

Avropada KOS AB-nin sosial-iqtisadi genişlənməsinin əsasını təşkil edir. Avropa İttifaqında 23 milyondan çox kiçik və orta sahibkarlıq biznesi vardır ki, onlar ümumi dövriyyə və əlavə dəyərin yarısından çoxunu verir. Avropadakı kiçik müəssisələrdə işləyənlərin sayı təxminən 70% -dir, bu da ümumi dövriyyənin 57% -ni və əlavə dəyərin 53% -ni təşkil edir. Amerika Birləşmiş Ştatlarında 20 milyondan

çox KOS (kənd təsərrüfatı strukturları istisna olmaqla) fəaliyyət göstərir. Avropa Birliyindən kənar ölkələrdə - Kanada, Avstraliya, Yeni Zelandiya, Asiya (Yaponiya istisna olmaqla), Orta Şərq və Afrika, təxminən 5 milyondan çox firma fəaliyyət göstərir. Çində təxminən 4.3 milyondan çox kiçik və orta sahibkarlıq və 27.9 milyon özəl müəssisə vardır ki, bu müəssisələrdə işləyən şəhər əhalisinin 75% -dən çoxu çalışır.

BMT statistikasına görə, dünyanın qlobal iqtisadi sistemində işlək əhalinin təxminən 50 faizinin işəgötürənləri kiçik və orta sahibkarlardır.

Dövri böhranlar dövründə, o cümlədən iqtisadiyyatın yenidən qurulması zamanı və postsənaye genişlənməsinə keçid dövründə, məşğulluğun daim azalması ilə milli sənayedə istehsalın tənəzzülü baş verir. Belə hallarda kiçik və orta sahibkarlığın müstəsna xüsusiyyətlərindən biri – depressiv zonalarda sosial gərginliyi xeyli dərəcədə zəiflədən yeni iş yerlərinin sürətli yaranması hadisəsi-açıq şəkildə özünü göstərir (Абдибеков С.У., Беделбаева А.Е.,2015).

Yuxarıda göstərilən göstəricilər hər bir dövlətin siyasi və sosial-iqtisadi həyatında KOS-ların rolunun olduqca böyük olduğunu göstərir, belə ki, KOS sektorunda kifayət qədər çox müəssisə fəaliyyət göstərir, çox sayda iqtisadi cəhətdən fəal əhali toplanır və ÜDM-in təxminən yarısı istehsal olunur. Estoniya və Çexiya kimi Şərqi Avropa ölkələrində bazar iqtisadiyyatına keçid dövründə həyata keçirilən özəlləşdirmə siyasəti nəticəsində kiçik və orta sahibkarlıq yüksək səviyyədə inkişaf etmişdir. Bu ölkələrdə hər min nəfərə düşən KOS-ların sayı müvafiq olaraq 71 və 88-dir.

KOS-ların sayının kifayət qədər çox olması və onların ümumi daxili məhsulda olan payına görə İtaliya və Malta digər Avropa ölkələrini qabaqlayır. Burada KOS-ların payına düşən əlavə dəyər uyğun olaraq 80% və 77% - təşkil edir. Bundan əlavə, bir çox Avropa ölkələrində bu göstərici ÜDM-in 50% -i dən çoxdur. ABŞ, Yaponiya, Almaniya kimi ölkələrdə kiçik müəssisələrin ümumi müəssilərin sayında xüsusi çəkisi 99% -dən çoxdur. Yaponiyadakı 880 min sənaye müəssisəsindən yalnız 4 mininin 300-dən çox, 700-ünün isə 1000-dən çox işçisi var. AB ölkələrində, 500-dən çox işçisi olan müəssisələrin sayı 12 mindən çox deyil.

Fəaliyyət növünə görə Avropa və Asiyada kiçik biznes iqtisadiyyatın demək olar ki, bütün sahələrini əhatə edir (Сташков С., Мрочковский Н., 2012).

Kiçik və orta sahibkarlığın iqtisadiyyatdakı əsas üstünlüyü kapital xərclərinin aşağı olması səbəbindən əhəmiyyətli məşğulluq potensialı yaratmaq qabiliyyətidir. Avropa Birliyində (AB) KOS-lar bütün müəssisələrin 99% -ni təşkil edir, bunların 91% -i 10-dan az işçisi olan mikro müəssisələrdir. Neftlə zəngin ərəb ölkələri olan Səudiyyə Ərəbistanında ÜDM-nin 25%, Əlcəzairdə 77% və Birləşmiş Ərəb Əmirliklərində 75% KOS-lar istehsal edir. İnkişaf etmiş ölkələrdə ümumi daxili məhsulun 50% -i KOS-lar tərəfindən istehsal olunur. Böyük bir kapital bazası olmayan və milyonlarla ailə üçün gəlir mənbəyi olan kiçik və orta sahibkarlığın iqtisadi böhran dövründə xüsusi həssaslıq nümayiş etdirdiyi faktı danılmazdır.

KOS-lar arasında vacib fərqləndirici amil onların inkişaf dərəcəsidir. Yüksək texnoloji müəssisələr sahibkarlıq həyatında hakimiyyət və güc mənbəyidir və bu, iqtisadi artım və yeni iş yerlərinin açılması üçün vacib bir stimuldur.

Ümumiyyətlə, kiçik və orta sahibkarlıq iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq bütün ölkələr üçün mühüm əhəmiyyət daşıyır.

### 1.2.1. İnkişaf etmiş qərb ölkələrində KOS fəaliyyəti

Cəmiyyətin hazırkı mərhələsində kiçik və orta sahibkarlığın rolu olduqca böyükdür. KOS-lar ictimai istehsal proseslərinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir və hazırda onlar olmadan cəmiyyətin uğurlu sosial iqtisadi inkişafını və istahsalın səmərəlil artımını təmin etmək mümkün deyildir. Son onilliklər ərzində kiçik biznes innovativ proseslərdə fəal şəkildə dərinləşməyə başlamışdır. Bundan başqa kiçik biznes dünya təsərrüfat sistemində iqtisadi fəal əhalinin əsas hissəsini təşkil edən orta təbəqəni formalaşdırır. Məhz kiçik və orta sahibkarlığın funksiyalarının inkişafı ilə onun inkişaf etmiş qərb ölkələrinin iqtisadıyyatında rolu da artmışdır.

Kiçik və orta sahibkarlığın qlobal iqtisadiyyatdakı rolunu anlamaq üçün, onların mahiyyətini və sahibkarlıq fəaliyyətinin təsnifat meyarlarını mümkün

olduqca dəqiq müəyyənləşdirmək lazımdır. Qeyd etmək lazımdır ki, müxtəlif ölkələrdə kiçik biznes üçün meyarlar fərqli ola bilər ki, bu da beynəlxalq müqayisələri xeyli çətinləşdirir. Aşağıdakı cədvəldə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə kiçik müəssisələrin fəaliyyətinin əsas göstəriciləri əks olunmuşdur.

**Cədvəl 2: İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə kiçik müəssisələrin fəaliyyətinin əsas göstəriciləri**

| Ölkələr | KOM-ların sayı, min vahid | Əhalinin 1000 nəfərinə düşən KOM | KOM-larda çalışanların sayı, mln. | Məşğul olan-ların ümumi sayında xüsusi çəkisi, % | ÜDM-da xüsusi çəkisi, % |
|---|---|---|---|---|---|
| Böyük Britaniya | 2930 | 46 | 13.6 | 49.0 | 50-53 |
| Almaniya | 2290 | 37 | 18.5 | 46.0 | 50-54 |
| İtaliya | 3920 | 68 | 16.8 | 73 | 57-60 |
| Fransa | 1980 | 35 | 15.2 | 54 | 55-62 |
| ABŞ | 19300 | 74.2 | 70.2 | 54.0 | 50-52 |
| Yaponiya | 6450 | 49.6 | 39.5 | 78 | 52-55 |

**Mənbə:** http://economy-lib.com/disser/304608/a?#?page=14

Cədvəldən göründüyü kimi, inkişaf etmiş ölkələrin iqtisadi həyatında kiçik biznes sektorunun mühüm rolu vardır. Məsələn, ABŞ-da, “kiçik biznes” termini həm kiçik, həm də orta müəssisələrə aiddir. Avropa ölkələrində və Yaponiyada kiçik biznesin rəsmi təriflərində “kiçik və orta sahibkarlıq” termini istifadə olunur. . İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının nizamnaməsində aşağıdakı təriflər verilir: 19 nəfərə qədər işçisi olan müəssisələr çox kiçik, 20 nəfərdən 90 nəfərə qədər kiçik, 100 nəfərdən 499 nəfərə qədər orta müəssisələr kimi təyin olunur. Avropa Birliyindəki statistikaya gəldikdə, "kiçik və orta sahibkarlıq" kateqoriyasına üç növ müəssisə daxildir – mikro, kiçik və orta. Bunu müəyyən edən xüsusiyyətlər işçilərin sayı, satış və illik balans hesabatlarıdır.

**Cədvəl 3: Avropa Birliyindəki mikro, kiçik və orta müəssisələr üçün müəyyənedici xüsusiyyətlər**

| Müəssisının kateqoriyası | Əməkdaşların sayı, adam | İllik dövriyyə mln avro | İllik yekun balans, mln avro |
|---|---|---|---|
| Mikromüssisələr | 1–9 | 2 | 2 |
| Kiçik müssisələr | 10–49 | 10 | 10 |
| Orta müəssisələr | 50–249 | 50 | 43 |

**Mənbə:** Avropa KOS-ları üzrə İllik Hesabat 2014/2015, https://www.ec.europa.eu

Kiçik və orta müəssisələrə, o cümlədən, beynəlxalq təcrübəyə xas olan keyfiyyət meyarları arasında bunları qeyd etmək lazımdır:

- mülkiyyət hüquqlarının davamlılığı və müəssisəni birbaşa idarə etmək. Müəssisənin sahibi bir qayda olaraq, müəssisəni müstəqil idarə edir, özünü riskə qoyur və yalnız qoyulmuş kapitala görə deyil, həm də qəbul edilən qərarlar üçün tam məsuliyyət daşıyır;
- şəffaflıq-bu sahibkara müəssisədə baş verən hər şeydən xəbərdar olmağa imkan verir
- sahibkarın resurs tədarükçüləri və məhsul alıcıları ilə xüsusi münasibətləri, habelə müəssisənin işçiləri ilə münasibətlərin qeyri-rəsmi xarakteri
- resurslar və satış üçün nisbətən kiçik bazarlar-kiçik şirkətlər qiymət səviyyəsinə, habelə sənayedə satılan malların həcminə təsir göstərə bilmirlər ki, bu da onları xarici mühitə uyğunlaşma strategiyaları tətbiq etməyə məcbur edir.
- İşin ailəliklə aparılması - Kiçik müəssisələrdə əsas kapital tez-tez ailə əmanətləri hesabına yaradılır, biznesin özü ailə üzvləri tərəfindən miras alınır və işçilər birjalar və iri investorlar vasitəsi ilə zəruri maliyyə mənbələrini meydana gətirən böyük korporasiyalardan fərqli olaraq çox vaxt qohum olurlar.

Kiçik və orta sahibkarlıq iqtisadiyyatın bütovləşməsi üçün bir növ təməl təşkil edir. Dövlət dəstəyi kiçik və orta sahibkarlığın qurulması və saxlanması üçün əsas amildir. Dövlət dəstəyi ən çox aşağıdakı şərtlərin təmin edilməsindən ibarətdir: güzəştli kreditlər; vergi ödənişlərinin azaldılması; binaların kirayəsi üçün imkanlar; KOS-lara subsidiya vermək; bank faizlərinin qismən kompensasiyası; dövlət hesabına qabaqcıl təlim; inzibati maneələrin aradan qaldırılması; zəmanət verilməsi.

Kiçik və orta sahibkarlıq inkişaf etmiş ölkələrin iqtisadiyyatının əsasını təşkil edir, ÜDM-in strukturunda mühüm yer tutur və əhalinin məşğulluğunu təmin edir, dövlətlərin iqtisadi, siyasi və sosial problemlərini həll etmək imkanı verir. Bütün iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə dövlət kiçik və orta sahibkarlığa müxtəlif təşkilati və maliyyə dəstəyi verilir ki, bu da büdcənin əhəmiyyətli dərəcədə

doldurulması ilə nəticələnir, iqtisadiyyatın səmərəli fəaliyyətinə və əhalinin həyat səviyyəsinin yüksəlməsinə səbəb olur.

Cədvəl 2-ni təhlil edərək belə nəticəyə gələ bilərik ki, milli iqtisadiyyatlarda kiçik və orta sahibkarlığın rolu çox böyükdür. Müxtəlif ölkələrin müqayisəli statistikası göstərir ki, iqtisadi inkişafın yüksək tempi və dünya bazarındakı müəssisələrin rəqabət qabiliyyəti bu ölkələrdə KOS-ların inkişafı ilə mütənasibdir.

AB-də kiçik və orta sahibkarlıq xüsusilə XX əsrin 80-ci illərində fəal inkişaf etməyə başladı. Sonralar praktik olaraq bütün Avropa ölkələrində bu iş növünün inkişafı üçün geniş tədbirlər görüldü (Cədvəl 4).

**Cədvəl 4: Kiçik və orta sahibkarlığın inkişaf istiqamətləri və ayrı-ayrı ölkələrin milli iqtisadiyyatına verdiyi töhfələr**

| Ölkə | Müəssisələrin ümumi miqdarında payı % | | Ümumi məşğulluqda payı, % | | ÜDM strukturunda payı, % | | İxracda payı, % | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1990-sonu - 2000-əvvəli | 2010–2015 | 1990-sonu - 2000-əvvəli | 2010–2015 | 1990-sonu - 2000-əvvəli | 2010–2015 | 1990-sonu - 2000-əvvəli | 2010–2015 |
| ABŞ | 84–87 | 97–98 | 42–45 | 58–60 | 42–45 | 50–52 | 28–30 | 37–40 |
| Avropa İttifaqı | 86–88 | 97–98 | 55–58 | 70–72 | 50–55 | 65–68 | 45–51 | 68–70 |
| Almaniya | 87–88 | 98–99 | 50–52 | 66–69 | 42–46 | 55–57 | 38–40 | 50–52 |
| İtaliya | 89–90 | 98 - 99 | 55–58 | 70–73 | 46–50 | 58–60 | 42–48 | 58–60 |
| Fransa | 82–85 | 98–99 | 40–45 | 58–60 | 46–50 | 55–57 | 36–42 | 48–50 |
| İsveçrə | 84–87 | 96–99 | 45–50 | 57–62 | 45–49 | 54–58 | 40–43 | 49–52 |
| Rusiya | 20–25 | 40–42 | 15–18 | 35–37 | 10–12 | 23–25 | 15–20 | 38–40 |
| Çin | 70–75 | 98–99 | 50–55 | 70–75 | 36–42 | 58–60 | 38–40 | 65–68 |

**Mənbə:** Сяомэй Л., 2014

Hal-hazırda, kiçik və orta sahibkarlıq həm iqtisadi artımın həyata keçirilməsində, həm də Avropada məşğulluğun artmasında böyük rol oynayır. Müəyyən dərəcədə AB daxilində bir çox inteqrasiya təşəbbüsünün uğurunun bu seqmentdən asılı olduğu iddia edilə bilər. AB-də kiçik və orta sahibkarlığa dəstək siyasəti hərtərəfli və sistemlidir.

Avropa Birliyində kiçik və orta sahibkarlığa dəstək və tənzimlənmənin ümummilli sistemi mövcuddur. Bu sistem 1970-ci illərin əvvəllərində tətbiq

olunmağa başladı. Əvvəlcə bəzi inzibati maneələrin aradan qaldırılması üçün tədbirlər mühüm rol oynadı, məsələn: AB üzv ölkələrində əlavə dəyər vergisinin qismən uyğunlaşdırılması; maliyyələşdirmə şərtlərində dəyişikliklərin həyata keçirilməsi (Kiçik Sahibkarlar üçün Qarşılıqlı Zəmanət Fondlarının yaradılması); ciddi sosial siyasət fəaliyyətləri. KOS-ları stimullaşdırmaq üçün ən vacib tədbir bu müəssisələrə aid Avropa siyasətini, taktika və strategiyanı təhlil edən "Ağ kitab"-ın hazırlanması və nəşri idi.

Avropada KOS-ların stimullaşdırılmasında digər vacib addım kiçik müəssisələr üçün Avropa Xartiyasıdır. Bu xartiyanın bir çox müddəaları Kiçik və Orta Müəssisələr üzrə Çoxillik Proqrama daxil edildi və bunun sayəsində AB-nin milli quruluşlarının köməyi ilə bir çox layihələr həyata keçirildi. Kiçik biznesin genişlənməsini dəstəkləmək üçün, işgüzar münasibətlərə girən müxtəlif dövlətlərin kiçik müəssisələri ilə ölkələrin hüquq sistemləri arasındakı ixtilaf problemlərini effektiv şəkildə həll etməyə imkan verən yeni hüquqi modellər quruldu.

Avropada kiçik biznesin dövlət idarəçiliyi, qanunvericilik, kiçik və orta sahibkarlığın inkişafının maliyyə, texnoloji, məlumatlandırma və kadr təşviqi üzrə hədəf proqramlarının formalaşdırılması və həyata keçirilməsi yolu ilə həyata keçirilir.

Bir qayda olaraq, kiçik və orta sahibkarlığın stimullaşdırılması sahəsində Avropa siyasəti iki səviyyədə həyata keçirilir: milli səviyyədə və AB-nin himayəsi altında həyata keçirilən proqramlar vasitəsilə. AB səviyyəsində kiçik biznesə dəstək fəaliyyətləri əksər hallarda AB Struktur Fondları tərəfindən maliyyələşdirilir.

AB-də kiçik və orta sahibkarlığın tənzimlənməsi və inkişaf etdirilməsi üçün millətlərarası, transmilli və milli idarəetmə təşkilatlar sistemi yaradıldı. AB-nin, ayrı-ayrı üzv ölkələrin maraqlarını, müxtəlif iş təşkilatlarının, milli sənaye və regional quruluşların və kiçik müəssisələrin birliklərinin, ticarət sənaye palatalarının fikirlərini nəzərə alan bu sistemin vacib elementi kiçik innovativ müəssisələrin inkişafını asanlaşdıran Avropa vençur kapitalı assosiasiyasıdır.

**Cədvəl 5: 2006–2015-ci illərdə maliyyələşmə imkanlarının artırılması baxımından KOS-lara dövlət dəstəyi**

| KOS sektoruna dövlət dəstəyi tədbirləri | Ölkə |
|---|---|
| KOS kreditlərinə zəmanət | İspaniya, Hollandiya, Slovakiya, Sloveniya, Avstriya, Danimarka, Finlandiya, İtaliya, Macarıstan, Almaniya, İsveçrə, Fransa, Polşa, Belçika, Portuqaliya |
| Startaplar üçün xüsusi zəmanət şərtlərinin təmin olunması | Danimarka, İsveçrə, Hollandiya, Avstriya, Çexiya, Estoniya, Fransa |
| İxrac əməliyyatlarına görə dövlət zəmanətinin artırılması | Danimarka, Finlandiya, Almaniya, Hollandiya, İsveç, İsveçrə, İspaniya, Estoniya |
| Dövlətin birgə maliyyələşdirilməsi (co-financing) (pensiya fondları daxil olmaqla) | İsveçrə, İrlandiya, Danimarka |
| KOS-ların birbaşa maliyyələşdirilməsinin payının artırılması | Macarıstan, Serbiya, Sloveniya, İspaniya |
| Faiz dərəcəsinin subsidiyalaşdırılması | Macarıstan, Portuqaliya, İspaniya, Türkiyə |
| Vergi güzəştləri, ödənişlərin təxirə salınması | Fransa, İrlandiya, İtaliya, İspaniya, İsveçrə, İsveç, Almaniya |
| Bankların KOM-lara kredit vermə sahəsində ixtisaslaşması; mənfi uçot dərəcəsi | İrlandiya, Danimarka, Polşa, Belçika |

**Mənbə:** МСП Банк: Развитие малого и среднего предпринимательства. Зарубежный опыт (2015) стр. 16

Kiçik və orta müəssisələrin milli, regional və yerli strukturlarla dəstəklənməsi üçün qarşılıqlı fəaliyyətini maksimum dərəcədə artırmaq məqsədilə hazırlanmış şəbəkələrin yaradılmasına çox diqqət yetirilir. Kiçik və orta ölçülü innovativ sahibkarlığın Avropa Birliyi səviyyəsində inkişafına həm dövlət maliyyə qurumları, həm də özəl şirkətlər və qeyri-kommersiya təşkilatları təsir göstərir.

KOS-lar üçün dəstək proqramlarının həyata keçirilməsində innovativ layihələri dəstəkləyən Avropa elmi-texniki əməkdaşlıq proqramı - “EUREKA” çox mühüm yer tutur. “EUREKA” Avropa çərçivə proqramlarını tamamlayır və AB burada tərəfdaş olaraq iştirak edə bilər.

Həmçinin qeyd etmək lazımdır ki, AB səviyyəsində innovasiya fəaliyyəti , özəl sahibkarlıq kapital fondlarına qoyulan investisiyalar, habelə innovativ kiçik və orta sahibkarlığa qoyulan sərmayə üçün borc zəmanəti ilə dolayı maliyyələşdirmə yolu

ilə stimullaşdırılır. Avropa dövlətləri kiçik biznes üçün ixrac imkanlarının genişləndirilməsinə çox fəal şəkildə stimul verirlər. Almaniya, Avstriya, İtaliya və Finlandiyada effektiv ixrac zəmanət mexanizmləri fəaliyyət göstərir.

KOS-lar arasında vacib fərqləndirici amil onların inkişaf dərəcəsidir.

Sahibkarlığın inkişaf dərəcəsi, bütövlükdə dövlət iqtisadiyyatının inkişaf səviyyəsini birbaşa müəyən edir. KOS-ların inkişafı rəqabətin inkişafını stimullaşdırır, böyük şirkətləri yeni texnologiyalar tətbiq etməyə və istehsalın səmərəliliyini artırmağa məcbur edir və iqtisadiyyatın səmərəliliyi kiçik və orta sahibkarlığın uğurlu fəaliyyətindən asılıdır. Buna görə inkişaf etmiş ölkələr, əsas məqsədi dövlətin və sahibkarlığın maraqlarını tarazlaşdırmaq, sahibkarlıq üçün optimal şərait yaratmaq, kiçik müəssisələrin rəqabət qabiliyyətini artırmaq olan kiçik sahibkarlığa dəstək siyasətini həyata keçirirlər (Переверзев М., Лунева А. 2017).

AB-nin hər bir ölkəsi öz inkişafı üçün milli dəstək sistemlərinə malikdir. AB üzvü olan Fransa və AB üzvü olmayan İsveçrə dövlətlərində KOS fəaliyyətinin müqayisəli təhlili nəticəsində ümumilikdə AB olkələrində bu sahənin inkişafına nəzər salmaq mümkündür.

Fransada kiçik və orta sahibkarlıq çox yüksək inkişaf etmişdir. Bu əsasən maliyyələşdirmə metodlarınınuğurlu olması ilə əlaqədardır (Cədvəl 6).

Cədvəl 6-nı təhlil edərək bu nəticəyə gələ bilərik 2011–2015-ci illərdə KOS-lərə verilən kreditlərin həcmində müsbət tendensiya müşahidə olunur.

**Cədvəl 6: 2011-ci ildən 2015-ci ilə qədər Fransada KOS maliyyələşdirilməsi**

| Göstərici | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| Bütövlükdə biznes kreditləri, mln avro | 972 491 | 1 031 405 | 1 039 772 | 1 134 346 | 1 202 856 |
| KOS üçün kreditlər, mln avro | 210 930 | 229 642 | 264 293 | 290 589 | 301 432 |
| İllik dəyişmə, % | 3,2 | 8,9 | 15,0 | 9,9 | 3,7 |
| Bütün müəssisələr üzrə ayrılmış kreditlərdə KOS kreditlərinin payı, % | 21,7 | 22,3 | 27,9 | 26,5 | 25,9 |
| KOS üçün qısamüddətli kreditlər, mln avro | 40 523 | 42 742 | 39 619 | 40 211 | 42 524 |
| İllik dəyişmə, % | 3,1 | 5,5 | –7,3 | 1,5 | 5,8 |

**Mənbə:** МСП Банк: Развитие малого и среднего предпринимательства. Зарубежный опыт (2015) стр. 16

Fransa hökumətinin siyasəti, iqtisadiyyatın qloballaşması şəraitində KOS-ların işsizlik və iflas səviyyəsini azaltmaq, texnologiyanı inkişaf etdirmək və dünya bazarlarında çevikliyini, davamlılığını və rəqabətliliyini artırmaq məqsədi daşıyır.

Yüksək inkişaf etmiş postsənaye ölkəsi və əsas qlobal maliyyə və bank mərkəzlərindən biri olan İsveçrə Avropanın ən böyük siyasi, ticarət, iqtisadi və maliyyə tərəfdaşı olmaqla qlobal maliyyə sistemində mühüm rol oynayır.

2010 - 2015-ci illər arasında İsveçrənin ÜDM-dəki KOS-ların payı 54–58% təşkil etmişdir (Cədvəl 3). Bu məlumatlar KOS-ların ölkənin inkişafındakı böyük rolunu sübut edir.

Cədvəl 7 və Cədvəl 8-dəki məlumatlara baxsaq, İsveçrədəki KOS-lara dövlət dəstəyinin bütün maliyyə göstəricilərində müsbət bir tendensiyanın olduğunu görərik:

**Cədvəl 7: 2014 - 2015-ci illər arasında İsveçrə iqtisadiyyatında müxtəlif növ müəssisələrin rolu**

| Müəssisənin ölçüsü | Müəssisələrin miqdarı (Ümumi sayda %) | Müəssisədə çalışanlar (Ümumi sayda %) |
|---|---|---|
| Mikro (0–9) | 86 | 24,8 |
| Kiçik (10–49) | 11,6 | 21,8 |
| Orta (50–249) | 2 | 20 |
| İri ( 250-dən çox) | 0,4 | 33,4 |

**Mənbə:** İsveçrə KOS-ları. 2016-cı il üçün son göstəricilərinin təhlili, (https://www.alexandria.unisg.ch/246207)

**Cədvəl 8: 2011-ci ildən 2015-ci ilə qədər İsveçrədə KOS-ların maliyyələşdirilməsi**

| Göstərici | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| Bütün biznes kreditləri, milyon isveçrə frankı | 421 491 | 458 405 | 479 772 | 501 346 | 523 856 |
| KOS üçün kreditlər, milyon isveçrə frankı | 332 920 | 345 342 | 389 293 | 410 589 | 426 432 |
| İllik dəyişmə, % | 4,2 | 3,7 | 12,7 | 5,4 | 3,8 |
| Bütün müəssisələr üzrə ayrılmış kreditlərdə KOS üçün kreditlər | 78,9 | 75,3 | 81,1 | 81,9 | 81,4 |
| İxracyönümlü müəssisələrə dövlət kreditləri, milyon isveçrə frankı | 3323 | 3442 | 3619 | 3511 | 3824 |
| KOS-lara verilən kreditlərə dövlət zəmanətlərinin həcmi, milyon isveçrə frankı | 210 | 224 | 241 | 273 | 264 |

**Mənbə:** Eurostat, Strukturlaşdırılmış Biznes Statistikası, KOS-lar. (http://ec.europa.eu/eurostat/web/structural-business-statistics/structural-business-statistics/sme)

Bu göstəricilər İsveçrədə kiçik və orta sahibkarlığın inkişafı və maliyyələşdirilməsini dəstəkləmək üçün uğurlu siyasətin və kiçik və orta sahibkarlığın genişlənməsi üçün əlverişli biznes mühitinin olduğunu göstərir.

### 1.2.2. İnkişaf etmiş şərq ölkələrində KOS fəaliyyəti

Çin Xalq Respublikasında (ÇXR) kiçik və orta sahibkarlıq subyektləri bazarın canlanması, iqtisadi artım, məşğulluq imkanlarının artırılmasında ən mühüm təşviqedici faktor hesab edilir. Son iki onillikdə KOS sektoru ÇXR iqtisadiyyatının ayrılmaz bir hissəsinə çevrilib. Hal-hazırda ÇXR-da iş yerlərinin böyük bir qismi KOS sektorunda yaranır və innovativ texnologiyalar da məhz burada daha sürətlə yayılır.

Hökümət KOS sektorunda ixtisaslaşmış ekspertlərin hazırlığı ilə məşğul olur, həmçinin, xarici bazarların öyrənilməsi istiqamətində dəstək göstərir. 2002-ci ildə "Kiçik və orta müəssisələrin inkişafının təşviq olunması haqqında Qanun" qəbul edilmişdir. Bu Qanunda kiçik və orta sahibkarlıq subyektlərinin də iri şirkətlərlə müasir texnikaya, bazar informasiyasına və maliyyə vəsaitlərinə əlçatanlığının hüquqi baxımdan eyni şərtlər altında təmin olunması nəzərdə tutulurdu. Digər tərəfdən, qanun KOS sektorunun bir çox gəlirli sahələrə daxil olmasına imkan yaradırdı, belə ki, qanunda dövlətin nəzarəti altında yalnız bir sıra strateji əhəmiyyətli iqtisadi sektorların qalması nəzərdə tutulur. 2003-cü ildən etibarən ÇXR-da KOS sektoru yüksək sürətlə inkişaf etməkdə, müəssisələrin gəlirləri artmaqda, dolayı yolla, dövlət büdcəsinə vergi daxil olmaları da artmaqdadır. Bu yüksək inkişaf tempinin əsas səbəbi dövlətin təşviqedici siyasəti nəticəsində KOS subyektlərinin sayının artması, digər tərəfdən isə Çində bazar həcminin həddindən artıq böyük olması kimi digər təbii mühit amilləridir.

Milli İnkişaf və İslahatlar Komissiyası (National Development and Reforms Comission – NDRC) ölkədə iqtisadi siyasəti həyata keçirən ən əsas təşkilatdır. Onun fəaliyyət istiqamətləri arasında həmçinin kiçik və orta sahibkarlığın dinamik inkişafı üçün münbit şəraitin formalaşdırılması yer alır. Təşkilatın tərkibində fəaliyyət

göstərən Kiçik və Orta Sahibkarlıq Departamenti və Çin Biznesin Əlaqələndirilməsi və Kooperasiyası Mərkəzi (China Center of Business Coordination and Cooperation – CCBCC) yaradılıb. CCBCC-nin əsas funksiyası kiçik biznesin dəstəklənməsi üzrə Çin və xarici təşkilatlar arasında iqtisadi-texnoloji səviyyədə əməkdaşlıq üçün şəraitin yaradılmasıdır.

Ölkədə KOS sektorunun inkişafına dəstək məqsədilə yaradılmış bir başqa təşkilat da Çin Kiçik və Orta Sahibkarlıq Təşkilatıdır (China Small and Medium Enterprises Organization – CSMEO). Kiçik və Orta sahibkarlıq üzrə dövlət informasiya xidməti olan bu qurum öz internet saytı ilə KOS subyektlərinə informasiya-konsultasiya dəstəyi göstərir. CSMEO çinin bütün bölgələrini əhatə edir və KOS subyektlərini əmək bazarı, mövcud qanunvericilik, son texnoloji nailiyyətlər və digər bazar məlumatları ilə təmin edir.

Çində bu sahənin təşviqi məqsədilə bir sıra vergi islahatları da həyata keçirilmişdir, belə ki, aylıq gəliri 20 min yuan və ya 2820 ABŞ dollarını keçməyən kiçik biznes nümayəndələri ƏDV-dən və dövriyyədən tutulan vergidən azad ediliblər. Eyni zamanda çox sayda iqtisadi zona yaradılmışdır ki, bununla da xarici investisiyaların və elmi-texniki resursların cəlbi stimullaşdırılır. Həmçinin, uğur vəd edən müəssisələrə yüksək güzəştli kreditlər verən KOS inkişafı fondları yaradılıb. (Avropa Birliyi Kiçik və Orta Biznes Mərkəzi, Çində Kiçik və Orta Sahibkarlıq: Siyasət mühiti hesabatı, 2018).

Kiçik və orta sahibkarlığın iqtisadi inkişafın mühüm amillərindən biri olduğunu nəzərə alan Yaponiya hökuməti bu sahəyə hərtərəfli komək göstərir.Yaponiyada şəxsi biznes qurmaq kifayət qədər asandır. Fərdi sahibkar kimi fəaliyyət göstərmək üçün yalnız ödənişsiz olaraq qeydiyyatdan keçmək lazımdır. Hüquqi şəxs kimi qeydiyyatdan keçmək isə 1 dollardan bir qədər çoxdur. Müəssisələr başlanğıcda adətən banklardan və ya ticarət sənaye palatalarıdan kredit götrürlər. Hökumət bütün özəl bankların başlanğıc üçün kredit proqramlarının olmasını təmin edir. Belə bir kredit üzrə orta illik faiz dərəcəsi 3-5% -dir.

Yaponiyada KOM-ların böyük hissəsi elmi -texniki tərəqqinin bir sıra vacib sahələrində, xüsusən də elektronika, kibernetika və kompüter elmləri sahəsində fəaliyyət göstərir.

Yaponiyada kiçik müəssisələrin sayının çox olmasına baxmayaraq, real kiçik biznes o qədər də çox deyil, çünki bu ölkədə kiçik biznes adətən böyük bir müəssisənin mövcud ritminə daxil olur və əsasən subtədarükçülər şəklində fəaliyyət göstərir. Belə bir funksiya kiçik müəssisələr üçün çox sərfəli və etibarlıdır.

Cənubi Koreya sahibkarlığın aktiv və uğurlu inkişaf etdiyi ölkələrdən biridir. Cənubi Koreyada dövlət siyasətinin prioritet istiqamətlərindən biri kiçik və orta sahibkarlığın dəstəklənməsi, sosial sahibkarlığın inkişafıdır. Kiçik və orta sahibkarlığın inkişafını stimullaşdıran vasitələri izah edərkən, ilk növbədə Koreya Respublikasının kiçik və orta sahibkarlıq üzrə xüsusi bir Koreya idarəçiliyinə sahib olduğuna diqqət yetirmək lazımdır. Bu ölkədə kiçik və orta müəssisələr maliyyə və ya inzibati göstəricilərə deyil, sahəvi xüsusiyyətlərinə görə fərqlənir. Burada əvvəlcə müəyyən bir sahəyə yeni sahibkarlıq fəaliyyətinin cəlb edilməsi üçün prioritet sahələr müəyyənləşdirilir və pul dövriyyəsi və gəlir göstəricilərinin şəffaflığı təmin edilir.

Koreya Respublikasında iqtisadiyyatın bütün sahələrinin inkişafı üçün zəruri stimulyator kimi innovativ inkişafa daha çox diqqət yetirilir. Son zamanlar Cənubi Koreyada sahibkarlığa dəstəyin əsas istiqamətləri aşağıdakılardır:

- böhran idarəetmə sisteminin yaradılması- sistemin vəzifəsi sahibkarlara lazım olan pul vəsaitlərini təmin etmək və səhiyyə sistemini yaxşılaşdırmaqdır. Sistemin maliyyələşdirilməsi 60 milyard ABŞ dollarından çox olmuşdur;
- debitor borclarının sığortalanması üçün vəsaitin həcminin 6 milyard ABŞ dollarına qədər artırılması;
- hökumətin təcili reaksiya qrupu yaradılması;
- ixtisaslaşmış universitetlərlə kiçik və orta müəssisələr arasında əməkdaşlığın gücləndirilməsi;
- vençur və innovasiya şirkətlərinin universitetlərlə ortaq təhsil proqramlarında fəal iştirakı, ardınca məzunların işlə təmin olunması.

### 1.2.3. MDB ölkələrində KOS fəaliyyəti

1991-ci ildən ilk olaraq Rusiya, Ukrayna və Belorusiyanın iştirakı ilə qurulan MDB sonradan Azərbaycan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Tacikistan, Türkmənistan, Gürcüstan da qoşulmuş, daha sonra isə Gürcüstan və Ukrayna bu birliyin üzvlüyündən çıxmışdır. Hazırda Birliyin tərkibində 9 dövlət- Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya və Tacikistan vardır. Türkmənistan isə fəaliyyətini müşahidəçi olaraq davam etdirir.

Kiçik və orta sahibkarlığın inkişafı istənilən ölkənin iqtisadiyyatının əsasını təşkil edir. İnkişaf etmiş kiçik və orta müəssisələr olmadan dövlətlərin makroiqtisadi vəziyyətinin sabitliyi barədə danışmaq çətindir.

Kiçik və orta sahibkarlıq sektoru Rusiyada təxminən otuz ildən çoxdur ki, mövcuddur. Rusiyada kiçik biznesin yarandığı dövrdən etibarən KOS-lərin sayı 7 dəfə, burada işləyənlərin sayı  2,5 dəfə, KOS sektorunun gəlirləri isə dəfələrlə artmışdır. Son illərdə bu sahədə yüksələn dinamika olmasına  baxmayaraq, artım tempi aşağı olmuşdur.

**Qrafik 1: Rusiya Federasiyasında KOS-ların sayının artım dinamikası, milyon**




**Mənbə:** Гачегов М.А. 1, Охрименко А.В., 2017

KOM sektorunda 19 milyona yaxın insan çalışır ki, bu da Rusiya Federasiyasının təsis müəssisələrində işçi qüvvəsinin təxminən 25% -ni və Rusiya Federasiyasında orta illik işçilərin sayının 27% -ni təşkil edir.Eyni zamanda, KOS-

larda hüquqi şəxslərin payı 71%, fərdi sahibkarların payı 29% təşkil edir (https://corpmsp.ru/about/info/years-2017).

24 sentyabr 2018-ci il tarixində Rusiya Federasiyası Prezidenti yanında Strateji İnkişaf və Milli Layihələr Şurasının Rəyasət Heyəti "Kiçik və orta sahibkarlıq və fərdi sahibkarlıq təşəbbüslərinə dəstək" milli layihəsinin pasportunu təsdiqlənmişdir. Bu layihə özlüyündə beş federal layihəni əhatə edir.

Rusiyada KOS-ların inkişaf dinamikasında artım müşahidə olunsa da, bu müəssisələrin səmərəliliyinin qiymətləndirilməsi metodikası yoxdur və belə bir metodikanın işlənməsinə ehtiyac var.

MDB üzvü olan digər respublika -Belorus respublikasında 2017-2018-ci illərdə kiçik və orta sahibkarlıq müəssisələrinin miqdarı aşağıdakı cədvəldə göstərilmişdir:

**Cədvəl 9: Belorus respublikasında 2017-2018-ci illərdə mövcud olan kiçik və orta sahibkarlıq müəssisələrinin miqdarı:**

| KOS subyektlrinin sayı | İllər | | 2018/2017 (%) |
|---|---|---|---|
| | 2017 | 2018 | |
| Mikro kiçik və orta müəssisələr, ədəd | 109971 | 111214 | 101,1 |
| *Orta müəssisələr* | 2245 | 2237 | 99,6 |
| *Mikro və kiçik müəssisələr* | 107726 | 108977 | 101,2 |
| *Mikro müəssisələr* | 95854 | 97449 | 101,7 |
| *Kiçik müəssisələr* | 11872 | 11528 | 97,1 |
| Fərdi sahibkarlar, adam | 236138 | 241300 | 102,2 |

**Mənbə:** http://ced.by/ru/publication/~shownews/2019-09-25-msp

Təqdim olunan məlumatlardan göründüyü kimi, kiçik və orta sahibkarlıq sektorunda son illərdə mikro müəssisələrin sayı üstünlük təşkil edir. Beləliklə, 2018-ci ilin nəticələrinə görə:

- mikro təşkilatların sayı 1,7% artmış;
- kiçik təşkilatların sayı 2,9% azalmış;
- orta təşkilatların sayı 0,4% azalmışdır.

Nəticədə KOS sektorunun strukturunda mikro sahibkarlığın payı müvafiq olaraq 87,2% -dən 87,6% -ə yüksəlmiş, kiçik müəssisələrin payı azalmış (10,8% -dən 10.4% -ə), orta müəssisələrin payı isə demək olar ki, dəyişməz olaraq qalmışdır (http://ced.by/ru/publication/~shownews/2019-09-25-msp).

Qazaxıstanda kiçik və orta sahibkarlıq iqtisadiyyatın ən vacib sektoru kimi təsbit edilir. Bu ölkədə kiçik və orta sahibkarlığa hərtərəfli dəstək həmişə dövlət siyasətinin prioriteti olmuşdur. Ölkədə əlverişli iş mühiti yaratmaq üçün sahibkarlıq fəaliyyətini tənzimləyən normativ-hüquqi baza təkmilləşdirilir, biznesə vergi yükü azaldılır, müəssisə açma prosedurları sadələşdirilir, maliyyə və qeyri maliyyə tədbirlər şəklində biznesin hərtərəfli dəstəklənməsi həyata keçirilir. Bu tədbirlər sayəsində ölkədəki kiçik və orta sahibkarlıq kütləvi və nisbətən dinamik şəkildə inkişaf etməkdədir.

2010-cu ildən etibarən Qazaxıstanda qeydiyyatdan keçmiş və aktiv KOS subyektlərinin sayının artım tempi yüksəlmişdir (Qrafik 2).

**Qrafik 2: Qazaxıstanda 2005-2014-cü illər arasında aktiv və qeydiyyat keçmiş KOS subyektlərinin artım tempinin dinamikası**




**Mənbə:** Курманов Н.А., Рахимбекова А.Е, 2016 (https://articlekz.com/article/20204)

Ölkənin inkişafının bu dönəmində kiçik və orta sahibkarlığa yardım kimi vətəndaşların sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına xüsusi diqqət yetirilir: Həqiqətən, də məhz kiçik şirkətlər daim dəyişən bazar şərtlərinə tez reaksiya verir, yenilikçi həlləri çevik inkişaf etdirməyə və tətbiq edə bilir.

Bu gün olkədə iqtisadiyyatın rəqabət qabiliyyətinin yaxşılaşması və Qazaxıstanın dünyanın inkişaf etmiş 30 ölkəsindən biri olması yerli müəssisələrin innovativ inkişafının səmərəliliyi ilə müəyyən edilir.

Bunu təmin etmək üçün müstəqillik əldə etdikdən bu günə qədər Qazaxıstanda sahibkarlığın inkişaf etdirilməsi, biznes mühitinin yaxsılaşdırlması, korrupsiyanın aradan qaldırılması üçün bir sıra qanunlar hazırlanmışdır bu da oz bəhrəsini vermişdir (Курманов Н.А., Рахимбекова А.Е, 2016).

Qırğızıstan Respublikasının 2018-2040-cı illər üçün Milli İnkişaf Strategiyası, kiçik və orta sahibkarlığın ölkə iqtisadiyyatında davamlı və uğurla inkişaf etməsini, sahibkarları inzibati təzyiqlərdən qorumağı, hökumət və biznes arasında tərəfdaşlıq qurmağı və özünütənzimləmənin inkişafı üçün qaydaların qəbul edilməsini hədəfləyir.

Qırğızıstanda kiçik və orta sahibkarlıq iqtisadiyyatın vacib bir hissəsidir və iş mühitini inkişaf etdirmək və yaxşılaşdırmaq, iqtisadiyyata birbaşa investisiya cəlb etmək və bütövlükdə dövlətin uğurlu inkişafı üçün səmərəli iqtisadi sistem yaratmaq məqsədi ilə dövlət tərəfindən həyata keçirilən islahatların ən vacib obyektlərindən biridir.

Aparılan bütün reformalara və çoxlu sayda qanun və normativ sənədlərin qəbul edilməsinə baxmayaraq ölkədə hələ də məhdud resursların idarə olunması və istehsalın əsas amillərinə (torpaq, enerji, su) çıxış münasibətlərini tənzimləyən qərar qəbuletmə sistemində KOS-lar üçün praktik olaraq aşılmaz maneələr mövcuddur. Müxtəlif növ icazələrin alınmasında çətinliklər qalmaqdadır və qanunun tələblərinə uyğunluq üçün aparılan yoxlamalar, korrupsiya halları həddən artıq lazımsız tələblər ehtiva edir və təhlükəsizliyə zəmanət vermir

Regional və sektoral biznes birliklərinin potensialında azalma var. Mütəxəssislərin getməsi və kadrların yetərsiz hazırlığı özəl sektorun inkişafına mane olan problemlərdən biri olaraq qalır.

2019-cu ilin əvvəlində Qırğızıstanda sahibkarlıq subyektlərinin yoxlanmasına moratorium tətbiq edildi. Risklərə əsaslanan vergi yoxlama sistemi də tətbiq edilmişdir ki, bu da yüksək risk dərəcəsi olan şirkətləri daha yaxşı

müəyyənləşdirməyə və sahibkarların ümumi yoxlamalarını azaltmağa imkan vermişdir (http://mineconom.gov.kg/ru/discussion/18).

Moldova Milli Statistika Bürosunun 2017-ci il məlumatlarına görə, kiçik və orta sahibkarlıq (KOS) Respublikadakı ümumi müəssisələrin - 43,7 min müəssisənin 97,8% -ni təşkil edir. Bunlardan: mikro müəssisələr - 33,8 min ədəd; kiçik müəssisələr - 8,3 min ədəd; orta müəssisələr - 1,6 min ədəd. Kiçik və orta müəssisələrin satışından əldə olunan gəlirlər ümumi iqtisadiyyatdakı satış gəlirlərinin 39.2% -ni təşkil edir.

Moldova ərazisində ilk innovativ müəssisələr gənclərin elmi və texniki yaradıcılıq mərkəzləri, ixtiraçılar və rasionalizatorlar ittifaqları, elmi-texniki cəmiyyətlər, elmi-texniki kooperativlər kimi təşkilati formalarda fəaliyyət göstərirdilər. Bu müəssisələr dövlət elmi-tədqiqat institutlarının və dizayn bürosunun maddi-texniki bazasından, elmi əsaslarından və insan resurslarından istifadə edirdilər. Hal-hazırda zəif iqtisadi vəziyyət və innovasiya tələbinin azalması səbəbindən yuxarıda sadalanan bir çox təşkilati formalar artıq fəaliyyətlərini dayandırmış və ya istiqamətlərini dəyişdirmişdir.

Moldova Respublikasında innovativ fəaliyyət göstərən müəssisələrin (KOM-ların ümumi sayında onların payı) fəaliyyəti ilə bağlı hər hansı bir statistik məlumat yoxdur, innovativ məhsulları xarakterizə edən statistik göstəricilər müəyyənləşdirilməyib və maliyyələşmə metodları yoxdur (mineconom.gov.kg/ru/discussion/18).

Yuxarıda sözügedən dörd ölkənin timsalında MDB ölkələrində kiçik və orta sahibkarlığın vəziyyəti barədə ümumi təsəvvür formalaşdırmaq mümkündür.

# II FƏSİL. SAHİBKARLIQ FƏALİYYƏTİNDƏ İNNOVASİYALARIN TƏŞKİLİ

## 2.1. İnnovativ sahibkarlıq formaları

Maliyyə dayanıqlığı, məhsul və texnologiyaların rəqabət qabiliyyəti, istehsal və satış səmərəliliyi ilə xarakterizə olunan bazar mühitində iqtisadi sabitliyi təmin etmək üçün iri müəssisələr reaktiv və strateji innovasiyalar həyata keçirirlər. Reaktiv innovasiyalar tənzimləyici xarakter daşıyır, strateji innovasiyaların həyata keçirilməsi isə gələcəkdə əhəmiyyətli rəqabət üstünlüklərinin əldə olunmasına imkan verir.

Ən çox inkişaf etmiş doqquz ölkənin rəqabətədavamlı sənaye və sahibkarlıq quruluşlarının amerikan iqtisadçısı M.Porter tərəfindən aparılmış təhlilinə görə strateji innovasiyalar əsasında istehsalın fasiləsiz yenilənməsi (yüksək sifarişli texnologiyalar və onları təmin edən maşın və avadanlıqlar sistemi, əməyin, istehsalın və marketinq xidmətlərinin təşkili yolları) təkcə sahibkarlıq strukturlarının və sənayenin deyil, həm də innovasiya-sahibkarlıq növünün dinamik sabit artımının təmin olunduğu ölkələrin davamlı rəqabət üstünlüyünün mənbəyidir. Müəssisələr, sənaye sahələri və ölkələr davamlı olaraq istehsalın fasiləsiz yenilənməsindən imtina etsələr, rəqabət üstünlüklərini itirə bilərlər.

Bu strategiya müharibədən sonrakı dövrdə milli iqtisadiyyatın əsas sektorlarında fəaliyyət göstərən yapon firmaları tərəfindən seçilmişdir. Bu onlara faktor rəqabəti mərhələsindən innovativ rəqabət mərhələsinə keçməyə imkan verdi.

İstənilən innovativ fəaliyyət sahibkarlıqdır və aşağıdakılara əsaslanır:

- yeni fikirlərin axtarışı və onların qiymətləndirilməsi;
- lazımi mənbələrin axtarışı;
- müəssisənin yaradılması və idarə edilməsi;
- pul gəlirlərinin alınması və nəticədən şəxsi məmnuniyyət.

Bütün sahibkarlıq formaları innovativ hesab edilmir, ancaq innovativ məhsulun istehsalı, istifadəsi və ya yayılması nəticəsində sahibkarlıq gəlirləri əldə

edə bilən sahibkarlıq formaları innovativ hesab edilir. İnnovativ sahibkarlığın subyektlərinə innovativ fəaliyyətlə məşğul olan müəssisə və təşkilatlar daxildir. Bazar iqtisadiyyatı şəraitində innovativ sahibkarlığın inkişafı istehlakçıların innovasiyalara olan tələbindən, milli iqtisadiyyatın inkişaf etmiş elmi-texniki potensialının mövcudluğundan, riskli innovasiya fəaliyyətlərini maliyyələşdirən vençur firmalarının və investorların fəaliyyətindən asılıdır.

İnnovativ fəaliyyət subyektlərinin öyrənilməsi zamanı onların yüksək inkişaf etmiş bazar iqtisadiyyatı şəraitində hansı iqtisadi münasibətlərdə olduqlarını və hansı funksiyaları yerinə yetirmələrini nəzərə almaq lazımdır.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə təsərrüfat subyektlərinin innovativ fəaliyyətlərinin təbiəti və xarakteri haqqında müasir nəzəri fikirlərin təhlili olmadan yerli innovasiya sahəsinin islahat proseslərini izləyəcək prioritetləri müəyyənləşdirmək və praktik olaraq həyata keçirmək mümkün deyil.

İnnovativ müəssisələrin ən vacib funksiyası elmi, texniki və sənaye sahələri arasında vasitəçilik etmək, rəqabət şəraitində davamlı avtomatik iqtisadi mübadilə təmin etməkdir.

İnnovativ müəssisələr, elmi-texniki fəaliyyət məhsulunu istehsal sektorunda istifadəsinə imkan verən bir vəziyyətə gətirməklə yanaşı, mənfəətli və sosial tələbatı ödəmək qabiliyyəti olan bir kommersiya tərəfdaşı axtarırlar. Beləliklə, innovativ firmalar elmi-texniki sahədə yaradılan məhsulun iqtisadi sahədə yaradılan məhsula çevrilməsi prosesində yaranan xərclərin azaldılması zamanı sosial tələbat olaraq yaranırlar.

İnnovativ müəssisələr bəzi xərcləri aradan qaldırmağa və istehsal xərclərini azaltmağa imkan verir. Onlar bazar münasibətləri çərçivəsində elmi-texniki qurumların və özəl sahibkarlıq subyektlərinin səmərəli qarşılıqlı fəaliyyətini təmin edən institusional forma kimi çıxış edirlər. Əgər onların fəaliyyət göstərməsi elmi-texniki qurumların və təsərrüfat subyektlərinin innovativ məhsulun yaradılması və ya elmi-texnoloji yeniliklərin kommersiya məqsədli istifadəsinə gətirilməsi ilə bağlı çəkdiyi xərcləri azaldırsa innovativ müəssisələr özləri müstəqil təsərrüfat subyektləri kimi fərqlənirlər.

Beləliklə, innovativ müəssisələr bazarda innovativ bir məhsul əldə edilməsi ilə əlaqadar təsərrüfat subyektlərinin əməliyyat xərcləri, oxşar məhsulun yaradılması ilə əlaqəli daxili xərclərdən az olduqda yaranır.

İnnovativ sahibkarlıq iqtisadi fəaliyyətin çoxşaxəli növüdür. Sahibkar kimi innovativ məhsulun hasilat dövrü ilə əlaqədar aşağıdakı təşəbbüs fəaliyyətlərini həyata keçirən fiziki və hüquqi şəxslər çıxış edirlər:

- innovativ məhsulun yaradılması (şəxsi innovativ sahibkarlıq);
- vasitəçi funksiyaların həyata keçirilməsi (innovativ məhsulun tanıdılması və birbaşa yaradıcıdan istehlakçıya ötürülməsi ilə əlaqədar xidmətlər göstərilməsi);
- innovativ fəaliyyətin təmin edilməsi üçün maliyyə sektorunda funksiyaların həyata keçirilməsi.

Nisbətən müstəqil olan innovasiya sahəsindəki bu sahibkarlıq fəaliyyət növləri hüquqi formada əməliyyatların məzmununda və həyata keçirilmə üsullarında əhəmiyyətli dərəcədə fərqlənməsinə baxmayaraq bir-birini tamamlayır.

İnnovativ müəssisə formasının seçimi şəxsi maraqlardan, fəaliyyət sahəsindən və pul vəsaitlərinin mövcudluğundan asılıdır. İnnovativ sahibkarlığın əsasını kiçik innovativ firmalar (ixracatçılar) - yeni yaranan iqtisadiyyat sahələrində texnoloji liderlər, yeni bazar seqmentləri açan, yeni sənaye sahələrini inkişaf etdirən, istehsalın bilik intensivliyini və rəqabət qabiliyyətini artıran və bununla da yeni texnoloji strukturların formalaşmasına töhfə verən şirkətlər təşkil edir.

Klassik sahibkarlıqdan fərqli olaraq, innovativ sahibkarlıq mövcud müəssisənin inkişafının yeni yollarını (yeni məhsullar, texnologiyalar, bazarlar, materiallar, idarəetmə formaları) axtarmağa və ya yeni, innovasiya yönümlü bir müəssisənin yaradılmasına əsaslanır. İnnovativ sahibkarlıq iki fərqli təşkilati formada həyata keçirilir:

- müstəqil hüquqi şəxs kimi müəssisə yaratmadan fərdi sahibkarlıq şəklində;
- müstəqil bir müəssisə yaratmaqla öz adından müstəqil iqtisadi fəaliyyət göstərmək hüququ olan ayrıca hüquqi şəxs kimi.

İnnovativ sahibkarlığın geniş təşkilati formalarına innovativ məhsulun ticarəti üçün istifadə olunan elmi-texniki komplekslər, mühəndis mərkəzləri, elmi-texniki kooperativlər, texnopolislər və elm və texnoparklar (texnoparklar), tədqiqat konsorsiumları və inkubatorlar daxildir.

İnnovativ fəaliyyət növü ilə məşğul olan müəssisələri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. İnnovasiya dövrünün (tsikl) müxtəlif mərhələlərində işləri həyata keçirən təşkilatlar: marketinq, elmi tədqiqat, tikinti-quraşdırma işləri, maliyyə təşkilatları, istehsalat, xidmət işləri və sair.
2. Elm parkları - böyük innovasiya mərkəzləri ətrafında formalaşan elmi təşkilatlar, bunlar aşağıdakılara ayrılır:

a) inkubatorlar - innovativ şirkətin yaradılması və inkişafı üçün əlverişli şərait yaratmaqda ixtisaslaşmış strukturlardır. İnkubator funksiyalarına aşağıdakılar daxildir: maddi və ya qeyri-maddi dəstək, təşkilatın bazar şəraitində fəaliyyətə hazırlığı (paylama kanallarının qurulması, istehsal, ilk müraciət və müqavilələrin formalaşdırılması), təlim.

b) Texnopark - kiçik biznesə dəstək vermək və innovativ mühitin formalaşdırılması məqsədi ilə elm və elmi xidmətlər sahəsində yaradılan müstəqil bir təşkilati quruluş;

   Texnoloji parkın vəzifələri: bilik və ixtiraları texnologiyaya çevirmək; texnologiyanı kommersiya məhsuluna çevirmək; kiçik innovativ sahibkarlıq sektoru vasitəsi ilə sənayenin texnologiyaya ötürülməsi; innovativ sahibkarlığa dəstək.

   Texnoparkların təsnifatı:

   i. tədqiqat parkı (əsas tədqiqatların son mərhələsində fəaliyyət göstərir və zərərsiz fundamental-tətbiqi köçürmə həyata keçirir; maksimum dövlət dəstəyi tələb olunur)

   ii. elmi texniki park (tətbiqi tədqiqat və inkişaf mərhələsində fəaliyyət göstərir, qazanclı və ya qazancsız bir transfer ola bilər; texniki sənədləri

tirajlayır və məhsulu inkişaf üçün hazırlayır; dövlət və biznesdən paritet dəstək tələb edir)

iii. texnoloji park (seriyalı istehsalın təşkilinə qədər təcrübə konstruktor və eksperimental işlər mərhələsində fəaliyyət göstərir; biznes dəstəyi tələb edir)

iv. sənaye texnoloji park (yeni məhsulların istehsalı üçün binaların, avadanlıqların müddətli istifadəyə verilməsi ilə əlaqədar gəlirli fəaliyyət göstərir; biznes tərəfindən tam dəstəklənir)

v. texnopolis - elmi ideyalar mərkəzinə yaxın bir bölgədə yerləşən və innovativ dövrün bütün mərhələlərində işləyən firmaların daxil olduğu kompakt bir kompleks

vi. elm və texnologiya bölgəsi - nəhəng elmi müəssisə və yüksək texnologiyalı məhsul istehsalında ixtisaslaşmış sənaye sahəsi geniş bir ərazidə fəaliyyət göstərir. Bu kompleksə həm də istehsal, daxili infrastruktur, kiçik və orta sahibkarlıq, maliyyə qurumları, mədəniyyət və istirahət zonaları da daxildir.

3. İnteqrasiya edilmiş strukturlar:

- maliyyə-sənaye qrupu - səmərəliliyi artırmaq məqsədi ilə vahid texnoloji dövr ilə əlaqəli öz aralarında birləşən sənaye müəssisələri, ticarət və elmi təşkilatlar banklarının birliyi. Müəssisələr maliyyə-sənaye qruplarında üfüqi, şaquli və qarışıq əsasda birləşdirilə bilər;
- konsorsium – böyük firmaların firmalararası kooperasiya çərçivəsində müvəqqəti birləşməsi.
- korporasiya - müstəqil sənaye müəssisələrinin, elmi, layihə və digər təşkilatların kollektiv sahibkarlıq əsasında könüllü birliyi;
- strateji alyans - şirkətlərarası əməkdaşlıq iştirakçılarının innovativ dördə mürəkkəb işlərin aparılmasına dair razılaşma.

İnnovativ fəaliyyətə başlayarkən kiçik müəssisələr bir sıra çətinliklərlə üzləşirlər ki, bunlardan ən çox rast gəlinənlər  biznesin planlaşdırılması, investorların axtarışı; məlumat və rabitə vasitələrinə giriş; tədqiqat marketinqi; təşkilatların qeydiyyatı, müəssisələrin yaradılması; hüquqi xidmətlərin göstərilməsi və hüquqi müdafiə; iş üçün otaq təmin edilməsi; elmi potensiala çıxış; sosial-məişət xidmətlərinin göstərilməsi; avadanlıq və istehsal xətlərinin icarəsi  və sairdir.

Innovativ layihənin həyat keçirilməsinə başlamaq üçün seçim meyarları: layihənin həyata keçiriləcəyi texnoloji cəhətdən sağlam məhsul və ya xidmət; dəstək komandasının sahibkarlıq bacarığı; təşkilatın idarəetmə potensialı;  innovasiya layihəsi üçün  iş planının olması, hazırlanmış məhsulun bazarda artma potensialı, (bazarın tutumu və  perspektivləri); layihənin peallaşmasının mümkün effekti və s.

Kiçik innovativ müəssisələrin bir sıra üstünlüklıri vardır ki, bunlardan aşağıdakıları  qeyd etmək olar:

- İnnovasiya dövrünün müddətini azaltmağa imkan verən idarəetmə qərarlarının dərhal verilməsi;
- birbaşa və şəxsi təmaslar səbəbindən faktur xəclərinin səviyyəsinin aşağı olması
- minimal  idarəetmə iyerarxiyası olduğundan təşkilatda bürokratik prosedurların olmaması.

Bu cür müəssisələrin fəaliyyətində bir sıra çətinliklər vardır ki, bunlar  peşəkar idarəetmə səviyyəsinin aşağı olması, xarici maliyyələşmə üçün imkanların məhdudluğu və iş yerlərinin aşağı ixtsaslı olması ilə bağlıdır

Kiçik innovativ müəssisələrin təsisçiləri, kommersiya riski şəraitində uğurlarına görə fərdi məsuliyyətə baxmayaraq, sahibkarlıq fəaliyyəti üçün yüksək motivasiya ilə xarakterizə olunurlar.

İnnovativ sahibkarlığın motivasiya yollarına  aşağıdakıları aid etmək olar:

- öz yaradıcılıq layihələrini həyata keçirmək imkanı
- qərar qəbul etməkdə yüksək dərəcədə müstəqillik və sərbəstlik;
- yüksək imicin təsdiqlənməsi və innovasiya sahəsində uğurların tanınması.

Kiçik sahibkarlıqda yüksək innovativ aktivlik axtarış azadlığı, bürokratiyanın olmaması, yeniliklərin sürətli sınanması kimi imkanlar yaradır. Bu kiçik bir sahibkara öz statusunu yüksəltmək və daha böyük təşkilat yaratmaq üçün imkan yaradır.

İnnovativ sahibkarlığın kiçik formalarından (məsələn, riskli inovasiyaların sınaq edilməsi və sənayedə tətbiq olunması üçün yaradılan vençur müəssisələr) başqa innovativ müəssisələrin orta və böyük təşkilati formaları da fəaliyyət göstərir.

Həm kiçik, həm də orta səviyyəli innovativ müəssisələrə aşağıdakı təşkilatlar aid edilə bilər:

- birgə müəssisələrin inkişafını təşviq edən və kiçik müəssisələrə idarəetmə və hüquqi, mühasibat, iqtisadi və digər xidmətlər göstərən bir iş mərkəzi (biznes inkubator);
- tətbiqetmə, patentləşdirmə və lisenziyalaşdırma, elmi və texnoloji innovasiyaların və innovativ fəaliyyət obyektlərinin bazarda tanıdılması, ixtiraların kommersiya istifadəsi və satılması üçün lisenziyaların verilməsində ixtisaslaşmış bir icra şirkəti.

İnnovativ sahibkarlığın yuxarıda göstərilən formalarından fərqli olaraq, vençur firmalar müəyyən bir innovativ məhsul əldə etmək üçün yaradılan müvəqqəti strukturlardır.

Kiçik innovativ müəssisələrin, oxşar böyük qurumlarla müqayisədə, sahibkarlıq qazancı əldə etmək şansı aşağıdakı hallarda daha yüksəkdir:

- bazarların kiçik boşluqlarına yönəlmiş bir strategiyadan istifadə edilməsi;
- bazarda şiddətli rəqabətin və kompleks maneələrin olmaması;
- istehsalın kapital tutumunun və bazarda irəliləyişin yüksık olmaması
- istehlakçılarla birbaşa əlaqə imkanı;
- elmi-tədqiqat işlərinin nəticələrindən çoxşaxəli istifadə etmək imkanı, onların müxtəlif ehtiyaclara tətbiqi;
- iqtisadi fəaliyyət şəraitinin nisbi stabilliyi və xammal, materiallar, komponentlər, enerji və s. qiymətlərin sabitliyi.

Böyük innovativ müəssisələr mühafizəkarlıqları ilə fərqlənir və yeni sosial ehtiyaclara və yeni ideyaların bazar məhsuluna ticari cəhətdən tətbiq edilməsinə reaksiyaları ləngdir.

Kiçik innovativ müəssisələrin yüksək səmərəliliyi yeni elmi fikirlərə operativ reaksiya və innovativ məhsulun tətbiqi nəticəsində son nəticənin əldə olunması ilə bağlı spesifik problemlərin həlli ilə izah olunur.

Böyük innovativ müəssisələrin səmərəliliyi aşağıdakı hallarda artır:

- innovasiyalardan genişmiqyaslı istifadə imkanının olması
- İnkişaf etmiş bazarlarda, innovasiyanı təşviq etmək üçün böyük sərmayə tələb edən şiddətli rəqabətin olması;
- innovativ məhsul istehsalında ilkin xərclərin yüksək olması;
- uzunmüddətli sınaq, lisenziyalaşdırma və innovativ məhsulun sertifikatlaşdırılması zamanı mürəkkəb texniki sistemlərdən istifadə zərurəti

Kiçik müəssisələrdən fərqli olaraq sahibkarlıq tipli iri korporativ quruluşlar əsas strateji innovasiyaları mənimsəmək üçün maddi və maliyyə imkanlarına malikdir.

Miqyas effektindən isifadə edən və böyük kapitala sahib olan böyük korporativ sahibkarlıq müəssisələri elmi texniki tərəqqinin milli iqtisadiyyata tətbiqinə nail olmaq üçün prioritet əhəmiyyət daşıyan strateji texnologiyaları mənimsəməyə qadirdir. Dövlət böyük biznes subyektləri ilə əməkdaşlıq edərək sahibkarlıq sahəsində müəyyən layihə və proqramların həyata keçirilməsi üçün qarışıq özəl dövlət müəssisələri yaradır.

## 2.2. İnnovativ sahibkarlıqla məşğul olan şirkətlərin qiymətləndirilməsi

Müəssisənin innovativ fəaliyyəti istehlak bazarında yeni mal və ya xidmətlərin buraxılması və istehsalı üçün zəruri olan bütün maliyyə, kommersiya, texnoloji, təşkilati elementlərin məcmusudur. Ümumiyyətlə, bütün innovasiya proseslərini iki böyük qrupa bölmək olar: istehsal müəssisələrində innovasiya və xidmət müəssisələrində innovasiya

Beləliklə, istehsal müəssisələrində aşağıdakı innovasiya növlərinə rast gəlinir:

Məhsul: Bu innovasiya növü, müxtəlif xüsusiyyətlərinə görə bazardakı digər məhsullardan müxtəlif xarakteristikalarına görə (qablaşdırma, məzmun, forma, tərkibindəki digər komponentlərin olması və s.)əsaslı fərqlənən tamamilə yeni innovativ bir məhsulun istehsalını nəzərdə tutur.

Proses: Bu innovasiya növü tamamilə yeni istehsal metodlarının istifadəsini nəzərdə tutur. Məsələn, yeni müasir avadanlıqların alınması və yüksək ixtisaslı mütəxəssislərin işə götürülməsi malların istehsalı üçün innovativ bir prosesin qurulmasına kömək edir, bunun nəticəsində isə istehsal, yüksək sürət, yüüksək əmək məhsuldarlığı və s. hesabına daha keyfiyyətli olacaq.

Xidmət sektorunda innovasiyalar xidmətin göstərilməsi prosesinin həyata keçirilməsinə yeni bir yanaşmada özünü göstərir.

**Müəssisənin innovativ fəaliyətinin qiymətləndirilməsi**

Müəssisədəki innovativ fəaliyyət və onun nəticələri yalnız onun həyata keçirilməsindən əldə olunan effektivlikdən istifadə edilərək qiymətləndirilə bilər. Əldə edilə bilən effektlərin bir neçə növü və formaları var: şirkət üçün ən vacib olan iqtisadi effekt pul şəklində ifadə olunan effektdir; elmi-texniki effekt- məhsul və ya xidmətlərin istehsalı prosesini təkmilləşdirmək qabiliyyətində özünü göstərir; sosial effekt - nə pul, nə də maddi forması olmur və qeyri-maddi faydalarla ifadə olunur; ekoloji effekt- onun əsasında istehsalın mahiyyətini və təbiətini yaxşılaşdırmaqla əlaqədar əldə edilən fayda dayanır.

Bu gün təşkilatların investisiya fəaliyyətini qiymətləndirmək üçün bir sıra göstəricilər mövcuddur:

- İnteqral effekt: Bu göstəricini eyni zamanda xalis cari dəyər və ya xalis cari effekt adlandırırlar. Müəyyən bir dövr üçün innovativ xərclərlə endirim uçotu arasındakı fərq kimi hesablanır.
- Rentabellik indeksi: Bu göstərici hər bir innovasiya layihəsinin ümumi kütlədəki əhəmiyyəti və effektivlik dərəcəsini göstərir, yəni azalan şkala üzrə rentabellik göstəricisindən asılı olaraq seçim aparılır.

- Rentabellik norması: Bu göstərici investisiya layihəsi çərçivəsində gəlirin layihəyə qoyulan investisiyaya bərabər olduğu nöqtəni göstərir.
- Geri ödəmə dövrü: Bu göstərici layihəyə yatırılan bütün vəsaitlərin hansı müddətə qayıdacağını göstərən bir kəmiyyətdir və fərqli layihələr üçün tamamilə fərqli müddət (il, ay, onilliklər) ola bilər.

Müəssisənin innovativ fəaliyyətinin nəticələrinin göstəriciləri yeni və ya təkmilləşdirilmiş məhsulların və texnoloji proseslərin tətbiqinin nəticələrini xarakterizə edən göstəricilər toplusudur. Statistikada üç qrup göstəricilər nəzərə alınır:

- ümumi məhsulda innovativ məhsulların xüsusi çəkisi;
- innovasiyanın müəssisənin fəaliyətinin nəticələrinə təsiri;
- innovasiyanın istehsal ehtiyatların istifadəsinə təsiri.

Müəssisənin innovativ inkişafı mövqeyindən aşağıdakı qiymətləndirmələri bilmək zəruridir:

1. Yalnız texnoloji innovasiyaların inkişafı ilə əldə edilə bilən xarici strateji dəyişikliklərin müəyyənləşdirilməsi ilə əlaqəli innovasiya siyasəti.
2. SWOT analizinə, mövcud elmi-tədqiqat işlərinə, elmi-texniki təcrübəyə və yeni texnologiyaların tətbiqi üçün iqtisadi imkanlara yönəlmiş innovativ fəallıq
3. Lider strategiyası və ya davamçı strategiyası şəklində həyata keçirilən innovativ strategiyalar.
4. Texnoloji investisiyaların qiymətləndirilməsi üçün ənənəvi yanaşmalar əsasında ən perspektivli innovasiya layihələri
5. Həm strateji innovativ, həm də cari istehsal və təsərrüfat fəaliyyətini təmin edən maliyyə və iqtisadi ehtiyatların yetərliliyini müəyyənləşdirmək üçün müəssisənin innovativ potensialı.

   Təşkilatın innovativ potensialı qarşıya qoyulmuş innovativ məqsədə çatmağı təmin edən vəzifələri yerinə yetirməyə hazır olmağın , yəni innovativ bir layihə və ya proqramn tətbiqinə hazırlıqın ölçüsüdür. Müəssisənin iqtisadi imkanlarının təhlili, şirkətin istehsal prosesini öz dövriyyə kapitalı,

uzunmüddətli və qısamüddətli kreditlərlə müxtəlif birləşmələrlə təmin etmək qabiliyyətini xarakterizə edən maliyyə sabitliyinin qiymətləndirilməsi metodologiyasının tətbiqinə əsaslanır. İnnovativ potensialın qiymətləndirilməsinin nəticələrinə əsasən hazırkı istehsal planlarının və təsdiq edilmiş uzunmüddətli strategiyaların həyata keçirilməsi üçün maliyyə və iqtisadi ehtiyatların ayrılmasına imkan verən büdcələr formalaşır və sonra tətbiq olunur, qiymətləndirilir və izlənilir, yeniləri hazırlanır və ya mövcud strategiyalar düzəldilir.

6. İnnovasiya prosesinin səmərəliliyi -hazırlanmış və tətbiq olunan innovativ layihələrin səmərəliliyinin qiymətləndirilməsi: Bu günə qədər ayrı-ayrı müəssisələrin və sahələrin innovativ inkişaf səviyyəsini bütövlükdə müəyyənləşdirmək üçün vahid bir yanaşma yoxdur. Məsələn, ABŞ-da müxtəlif elmi-tədqiqat işlərinin səmərəliliyini qiymətləndirmək və müəyyən müddət ərzində innovasiya funksiyasının müəssisənin fəaliyyətinə təsirinin dəyişməsini izləmək üçün 50-dək göstəricidən istifadə olunur.

Bu göstəricilərdən aşağıdakılar ən çox tətbiq olunur:

1. Tədqiqat İntensivliyi Əmsalı – (RIM - Research Intensity Metric) – ümumi satış həcmi ilə bağlı elmi-tədqiqat və təcrübə-konstruktor işləri üzrə xərclənən vəsaitin həcmi
2. Cəmi Tədqiqat və Texnologiya xərcləri (Total R&T Spending) - elmi-tədqiqat və təcrübə-konstruktor işləri üzrə sərf olunan vəsaitin ümumi həcmi
3. Xərcə Qənaət Əmsalı – (CSR - Cost Saving Ratio) - illik qazancla əlaqəli yeni texnologiyaların istifadəsindən müəssisənin qənaət səviyyəsinin göstəricisi.

Sahəyə aid bütün firmaların göstəricilərinin monitorinqi və təhlili əsasında müvafiq ümumiləşdirilmiş göstərici və ən yüksək xərclərə sahib texnoloji müəssisələr iyerarxiyasında reytinq müəyyənləşdirilir.

ABŞ Sənaye Tədqiqatları İnstitutu tərəfindən təklif edilmiş, maya dəyəri göstəricilərinə - satış həcmi, elmi-tədqiqat işlərinin ümumi xərcləri, elmi - texnoloji işçilərin əmək haqlari-əsaslanan müəssisələrin innovativ fəaliyyətinin göstəriciləri sistemində hesablanan əsas göstəricilər:

1. Tədqiqat intensivliyi indeksi, tədqiqat xərclərini ümumi satış xərclərinə bölməklə faizlə hesablanır. Bu indeks yüksək texnologiyalı məhsulların göstəricisini xarakterizə edir.
2. Elmi tədqiqat xərclərində əsas tədqiqat, tətbiqi tədqiqat və texniki xidmətin xüsusi çəkisi
3. Elmi tədqiqat sahəsində bir nəfər işçiyə düşən xərclər
4. İnnovasiyanın müxtəlif sahələrinə xidmət edən işçilərin vahidi üçün xərclər.
5. Yeni və təkmilləşdirilmiş məhsulların satışının ümumi satışdakı payı.
6. Yeni və təkmilləşdirilmiş proseslərin tətbiqi hesabına şirkətin əmanətlərinin payı.
7. Tədqiqat və tədqiqat işlərinin ümumi xərclərində texnologiyanın payı
8. Elmi-texniki sahədə hər 100 işçiyə düşən patent sayı.
9. Patent müraciəti sayının alınan patent sayına nisbəti.
10. Daxili tədqiqat xərclərinin ümumi Elmi tədqiqat xərclərində xüsusi çəkisi
11. Qeyri-maddi aktivlərin illik amortizasiyasının ümumi Elmi tədqiqat xərclərində payı

Qunin V.N. və həmmüəllifləri innovativ fəaliyyəti qiymətləndirmək üçün aşağıdakı göstəriciləri qeyd etmişdir:

a) maya dəyəri göstəriciləri:
   1) şirkətin satış həcmində və ya yüksək texnologiyalı məhsullarda tədqiqat və inkişafın xüsusi dəyəri. Yüksək texnologiya elmi fəaliyyətlə məşğul olanların sayının istehsalatda işləyənlərin hamısına nisbəti ilə də təmsil oluna bilər;
   2) lisenziyalar, patentlər, nou-hau əldə etmək üçün xüsusi xərclər;
   3) innovativ firmaların əldə edilməsi üçün xərclər
   4) inisiativlərin inkişafı üçün fondların olması
b) İnnovasiya prosesinin dinamikasını xarakterizə edən göstəricilər:

1) TAT («turn-around time») innovasiya göstəricisi (yeni bir məhsula olan ehtiyacın və ya tələbin reallaşdırıldığı andan bazara və ya istehlakçıya çox miqdarda göndərildiyi ana qədər olan vaxt)
2) yeni məhsulun (yeni texnologiyanın) hazırlanması prosesinin müddəti
3) yeni məhsul istehsalına hazırlıq müddəti
4) yeni məhsulun istehsal dövrünün müddəti

c) Yeniləmə qabiliyyəti göstəriciləri
1) innovasiya-məhsul və innovasiya-proseslərin işlənib hazırlanmasının və ya tətbiqinin sayı;
2) məhsul portfelinin yenilənməsi dinamikasının göstəriciləri (istehsal olunan məhsulların xüsusi çəkisi 2, 3, 5 və 10 il);
3) əldə edilmiş (ötürülmüş) yeni texnologiyaların (texniki nailiyyətlərin) sayı;
4) ixrac olunan innovativ məhsulların həcmi;
5) göstərilən yeni xidmətlərin həcmi;

d) Struktur göstəricilər:
1) tədqiqat, inkişaf və digər elmi-texniki struktur bölmələrin tərkibi və sayı (eksperimental və sınaq kompleksləri də daxil olmaqla);
2) yeni texnologiyaların tətbiqi və yeni məhsulun ərsəyə gətirilməsi ilə bağlı fəaliyyət göstərən müştərək müəssisələrin tərkibi və sayı;
3) tədqiqat və inkişaf işində iştirak edən işçilərin sayı və strukturu
4) müvəqqəti yaradıcı təşəbbüskar komandaların, qrupların tərkibi və sayı (Гунин В.Н. и др., 1999).

Sadalanan göstəricilər şirkətin potensial innovativ imkanlarını dəqiq müəyyənləşdirmir və strateji qərarların hazırlanmasında əhəmiyyətli olmayacaqdır. Müəssisənin innovativ fəaliyətinin qiymətləndirilməsi üçün vahid bir sistem mövcud olmadığından bu sahədə bir sıra çətinliklər meydana çıxır. Innovativ fəaliyyət sahələri çoxşaxəli olduğundan fəaliyyətin qiymətliəndirilməsi zamanı standart göstəricilərdən istifadə etmək mümkün olmasa da aşağıdakı ümumiəşdirilmiş göstəricilərə əsasən qiymətləndirmə aparmaq olar:

1. İnnovasiyaların gəlirlilik əmsalı (ROII və ya innovasiya investisiyalarına geri ödəmə) - həm uğurla başa çatmış layihələr üçün, həm də gəlirin artması və ya maya dəyərinin azaldılması üçün proqnoz hesablamalar aparıldığı təqdirdə həyata keçirilmək üçün hazırlanmış layihələr üçün də hesablana bilər (Düstur 1).

$$\text{ROII} = \frac{\text{innovasiyanın maliyyə nəticəsi}}{\text{İnnovasiyaya çəkilən xərclər}} \qquad (1)$$

   İnnovasiyalardan əldə olunan maliyyə nəticəsi, məsələn, yeni məhsulların satışından əldə olunan gəlir, yeni məhsulun bazara gətirilməsindən əldə olunan faktiki gəlirin planlaşdırılan göstəricidən artıq olması, əməliyyat xərclərinin azaldılması, məhsulun yeni bazar seqmentinə nüfuz etməsindən təşkilatın mənfəəti ola bilər.

   İnnovasiya xərcləri aşağıdakılardan ibarətdir: işçilər və xarici məsləhətçilər üçün xərclər; layihənin həyata keçirilməsi üçün xüsusi proqram təminatının alınması və ya öz inkişafı ilə əlaqəli xərclərdən; pul mükafatları və işçilərin müavinətləri; internet, jurnallar və s. vasitəsi ilə məlumat tapmaq.
2. Son N il ərzində yeni məhsulların satışından əldə olunan gəlirin ümumi mənfəətdəki payı.
3. Son N ildə sənaye bazarının nisbi artımı ilə müqayisədə şirkətin bazar dəyərinin nisbi böyüməsində dəyişiklik.
4. Son N il ərzində şirkətin bazara təqdim etdiyi yeni məhsul və / və ya xidmətlərin sayı.
5. Son N ay ərzində şirkət işçiləri tərəfindən irəli sürülən innovativ təkliflərin sayı.
6. Həyata keçirilən innovativ ideyaların irəli sürülən təkliflərin ümumi sayına nisbəti (İdeyaların təşkilində idarəetmənin effektivliyini xarakterizə edən ən vacib göstərici).
7. Təklifin verilməsindən layihənin başlanmasına qədər olan vaxt.

Rus iqtisadçısı A.A.Trifilovanın metodikasına görə effektiv innovasiya menecmentini həyata keçirmək üçün müəssisənin maliyyə və iqtisadi vəziyyətini təhlil etmək lazımdır. Maliyyə-iqtisadi vəziyyətin təhlilinin əsas istiqamətləri

balansın tərkibi və quruluşu, maliyyə sabitliyi, likvidlik və ödəmə qabiliyyəti, gəlirlilik, müəssisənin işgüzar fəaliyyətidir. Mövcud texnoloji yanaşmanın dərəcəsindən və müəssisənin istehsal vəziyyətindən asılı olaraq ya yeni bir texnologiyanın işlənməsinə əsaslanan lider strategiyası, ya da mövcud mal və xidmətləri əvəz etmək üçün mal və xidmətlərin yaxşılaşdırılmasına əsaslanan davamçı strategiyası seçilir. Müəssisənin innovativ fəaliyyətinin qiymətləndirilməsi müəyyən innovasiyaların inkişafında müəssisənin imkanlarını xarakterizə edən müəyyən iqtisadi göstəricilərə əsaslanmalıdır. İnnovasiya fəaliyyətinin iqtisadi göstəricilərinin məcmusuna bir sıra əmsallar daxil ola bilər: (Трифилова А.А., 2005)

1. Əqli mülkiyyətlə təmin etmə əmsalı – Əqli mülkiyyətin müəssisənin ümumi əsas vəsaitlərinə nisbəti ilə ölçülür (Düstur 2).

   $$K_i = \frac{M_ə}{A_ə} \qquad (2)$$

   Burada, $M_ə$ - əqli mülkiyyət, $A_ə$ - əsas aktivləri göstərir.

   Əmsalın 0,1 və daha böyük olması lider strategiyasını, 0,1-dən kiçik olması isə davamçı strategiyasını göstərir.

2. Yeni texnologiyanın mənimsəmə əmsalı - müəssisənin istismara yeni daxil edilmiş əsas vəsaitlərinin əsas vəsaitlərin orta illik dəyərinə nisbəti. Müəssisənin yeni avadanlıqları və istehsal- texnoloji xətləri mənimsəmə qabiliyyətini xarakterizə edir (Düstur 3).

   $$K_i = \frac{ƏV_Y}{ƏV_O} \qquad (3)$$

   Burada, $ƏV_Y$ - əqli mülkiyyət, $ƏV_O$ - əsas aktivləri göstərir.

   Əmsalın 0,35 və daha böyük olması lider strategiyasını, 0,35-dən kiçik olması isə davamçı strategiyasını göstərir.

3. Yeni məhsulların yaradılma əmsalı - müəssisənin innovativ və ya texnoloji innovasiyalar tətbiq edilmiş məhsulları ərsəyə gətirmə qabiliyyətini xarakterizə edir (Düstur 4).

   $$K_i = \frac{G_Y}{G_Ü} \qquad (4)$$

Burada, $G_Y$ – yeni məhsulun satışından əldə olunan ümumi gəliri, $G_Ü$ – müəssisənin ümumi gəlirini göstərir. Əmsalın 0,45 və daha böyük olması lider strategiyasını, 0,45-dən kiçik olması isə davamçı strategiyasını göstərir.

4. İnnovativ artım əmsalı. Texnoloji artım və sənaye inkişafının davamlılığını xarakterizə edir; Müəssisənin yeni texnologiyaların inkişafı, yüksək ixtisaslı mütəxəssislərin hədəf alınması, innovasiyalarla əlaqəli kadrların hazırlanması və tədrisi üçün özünün və birgə tədqiqatların aparılması üçün ayırdığı vəsaitlərin payını göstərir (Düstur 5).

$$K_i = \frac{\text{I}_\text{I}}{\text{I}_\text{Ü}} \qquad (5)$$

Burada, $İ_İ$ – innovasiya layihələrinə qoyulan investisiya dəyəri, $İ_Ü$ – digər investisiya qoyuluşlarının ümumi dəyərini göstərir.

Əmsalın 0,55 və daha böyük olması lider strategiyasını, 0,55-dən kiçik olması isə davamçı strategiyasını göstərir.

5. İnnovasiya üçün nəzərdə tutulmuş əmlak əmsalı. Texnoloji innovasiya ilə əlaqəli əldə edilmiş maşın və avadanlıqların bütün istehsal və texnoloji maşın və avadanlıqların ümumi dəyərindəki payını göstərir (Düstur 6).

$$K_i = \frac{\text{AD}_\text{TS}}{\text{AD}_\text{İ}} \qquad (6)$$

Burada, $AD_{TS}$ - təcrübə sınaq təyinatlı avadanlığın dəyəri, $AD_İ$ - istehsal təyinatlı avadanlığın dəyəri göstərir.

Əmsalın 0,25 və daha böyük olması lider strategiyasını, 0,25-dən kiçik olması isə davamçı strategiyasını göstərir.

6. İnnovasiya sahəsində çalışan işçilərin əmsalı. Bu göstərici innovasiyalarla bilavasitə məşğul olan işçilərin müəssisədəki işçilərin orta siyahı sayında olan payını göstərir (Düstur 7).

$$K_i = \frac{\text{P}_\text{İ}}{\text{P}_\text{A}} \qquad (7)$$

Burada, $P_İ$ – müəssisədə innovasiya sahəsində çalışan əməkdaşların sayını, $P_A$ – müəssisədə əməkdaşların orta illik sayını göstərir.

Əmsalın 0,20 və daha böyük olması lider strategiyasını, 0,20-dən kiçik olması isə davamçı strategiyasını göstərir.

İnnovativ inkişaf istiqamətini effektiv seçmək üçün müəssisənin mövcud imkanlarını qiymətləndirmək kifayət deyil. Əsaslandırılmış idarəetmə qərarları qəbul etmək, yeni və təkmilləşdirilmiş texnologiyaların inkişafı və tətbiqi üçün təxmini xərclər hərtərəfli hesablanmalı, ardınca müəssisənin innovativ potensialının maliyyə və iqtisadi təhlili aparılmalıdır. İnnovativ inkişaf strategiyasının bu ardıcıllığı, əsassız xərclərin və investisiyaların qarşısını almaqla həm yeni, həm də təkmilləşdirilmiş texnologiyaların tətbiqi, həm də hazırkı istehsal fəaliyyətlərinin maliyyə-iqtisadi dəstəklənməsi imkanlarını qiymətləndirməyə imkan verir.

Bu və ya digər bir texnologiyanın seçilməsi ilə bağlı iqtisadi və elmi cəhətdən əsaslandırılmış qərarlar qəbul etmək üçün əsas iqtisadi parametrlərə görə investisiyaların səmərəliliyinin təhlili kifayət deyil. Həm də göstəricilərin qarşılıqlı əlaqəsini nəzərə alaraq dəyişikliklərin dinamikasını qiymətləndirmək lazımdır. Bunun üçün yeni texnologiyaların müəssisə iqtisadiyyatının inkişafına təsirini qiymətləndirmə metodunu tətbiq etmək olar.

Təklif olunan digər üsul müəssisənin innovativ inkişaf indeksindən istifadə edərək müəssisənin innovativ inkişaf səviyyələrini qiymətləndirməyə imkan verir.

Hər bir şirkət özü üçün ən əhəmiyyətli hesab etdiyi meyarlardan istifadə edə bilər. İnnovativ potensialın təhlilindən başqa ətraf mühit amillərini nəzərə almaqla təşkilatın innovativ potensialına təsir göstərən innovasiya iqliminin qiymətləndirilməsini aparmaq mümkündür.

İnnovasiya iqlimi, təşkilatın innovasiya məqsədinə çatmasına kömək edən və ya mane olan xarici mühitin vəziyyətidir. Təşkilatın xarici mühiti makro və mikro mühitə ayrılır. Makro mühitdə dörd strateji sahə fərqlənir: sosial (S), texnoloji (T), iqtisadi (E) və siyasi (P). Onların təşkilatın makro mühitinə və onun innovativ potensialına təsiri STEP analizinin nəticələri ilə müəyyən edilir.

Təşkilatın mikro mühiti birbaşa ətraf mühitin strateji zonaları, onunla birbaşa qarşılıqlı fəaliyyət göstərən və innovativ potensialın vəziyyətinə birbaşa təsir edən qurumların tərkibi kimi qəbul edilir. Xarici mühitin komponentlərinin və

parametrlərinin qiymətləndirilməsi mütəxəssis tərəfindən beş ballıq şkala üzrə aparılır.

Innovasiyaların müəssisənin fəaliyyətinin effektivliyinə təsiri sahəsində empirik tədqiqatlar apararaq innovasiyaların qiymətləndirilməsinə aşağıdakı yanaşmaları ayırmaq olar:

1. Xüsusi yanaşma istifadə etməyən, standart ekonometrik analiz metodlarına əsaslanan metodikalar: Bu zaman innovasiya xərcləri, innovasiya sahəsində çalışanların sayı, müəssisənin mənfəəti kimi göstəricilər təhlil edilir.
2. Müəssisənin innovativ fəaliyyəti ilə onun iqtisadi göstəriciləri arasında qarşılıqlı əlaqəni tədqiq edən metodikalar: Bu zaman iqtisadi nəticə kriteriyaları olaraq mənfəət artımı, müəssisənin rəqabət qabiliyyətinin artması və s. götürülür.

Göründüyü kimi, innovasiya strukturlarının fəaliyyətinin qiymətləndirilməsində vahid bir yanaşma yoxdur və mövcud yanaşmaların təhlili əsasında yeni metodların işlənməsinə ehtiyac vardır.

Azərbaycanda KOS sektorunun inkişafı iqtisadiyyatın şaxələndirilməsi, rəqabət qabiliyyətliliyinin yüksəldilməsi, məşğulluğun artırılması, istehlak mallarına tələbatın daxili resurslar hesabına ödənilməsi, iqtisadi artımın təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Belə ki, yüksək inkişaf səviyyəsinə malik ölkələrdə KOS-un ümumi daxili məhsul və məşğulluqdakı payına baxdıqda aydın olur ki, Azərbaycanda da dayanıqlı iqtisadi inkişafın təmin olunmasında Kiçik və orta sahibkarlığın əsas hərəkətverici faktora çevrilməsi qarşıya qoyulan əsas vəzifələrdən biri olmalıdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanda sahibkarlığın inkişafının dəstəklənməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 610 nömrəli və 2002-ci il 17 avqust tarixli 753 nömrəli fərmanları ilə müvafiq olaraq “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi proqramı (1997-2000-ci illər)” və “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)” qəbul edilərək icra edilmişdir. Bununla yanaşı, 2014-cü il 27 fevral

tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda və 2014-cü il 26 dekabr tarixli 964 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda sahibkarlığın inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarların hüquqlarının və qanuni mənafelərinin müdafiəsi mexanizmlərinin təkmilləşdirilməsi sahəsində tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

Sahibkarlığın təşviqi məqsədilə dövlət tərəfindən görülən tədbirlərə daxildir: Sahibkarlıq sahəsində aparılan yoxlamaların 2 il müddətinə dayandırılması, sahibkarlıq fəaliyyəti üçün lisenziya və icazələrin sayının və ödənilən rüsumların məbləğlərinin dəfələrlə azaldılması, icazələrin verilməsi prosedurlarının sadələşdirilməsi, o cümlədən bu sahədə elektron portalın yaradılması üzrə işlərin davam etdirilməsi, sahibkarların hüquqlarının qorunması ilə bağlı Apellyasiya Şuralarının yaradılması, ölkə ərazisindən tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipinin tətbiq olunması, ölkədə investisiyaların təşviqinin artırılması məqsədilə 7 il müddətində vergi və gömrük güzəştlərinin verilməsi, idxal-ixrac əməliyyatları zamanı gömrük prosedurlarının sadələşdirilməsi məqsədilə elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi, tələb olunan sənədlərin və prosedurların sayının minimuma endirilməsi, malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və beynəlxalq təcrübədə mövcud olan digər buraxılış sistemlərinin yaradılması, dövlət satınalmalarında təkmilləşdirmələrin aparılması, dövlət orqanlarında sahibkarların müraciətlərinin birbaşa cavablandırılmasını həyata keçirən, məlumatlandırma və məsləhət xidmətləri göstərən çağrı mərkəzlərinin yaradılması və s. (Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi).

Ölkədə son dövrlərdə aparılan iqtisadi reformlar innovativ sahibkarlığın aktivləşməsi istiqamətində də yeni imkanlar yaratmışdır. Belə ki, son illərdə dövlət KOS sektorunun inkişafına daha çox diqqət ayırmış, bu sahədə requlyativ qanunverici bazanı gücləndirmiş, bir sıra yeni qurumlar yaradılmışdır. Elektron hökumət xidmətlərinin əhatə dairəsinin genişlənməsi, KOS miqyasında

innovasiyaların təşviqi məqsədilə infrastrukturun gücləndirilməsi, o cümlədən, sənaye parkları, texnologiya parkları, aqroparklar və biznes inkubatorlar yaradılmış, maliyyəyə çıxış imkanlarının artırılması istiqamətində görülən işlər dövlətin bu sektorun inkişafına göstərdiyi marağın bariz ifadəsidir. Bununla belə, bütövlükdə iqtisadi təsərrüfat sisteminin, eləcə də innovasiya sferasının tənzimlənməsinin bazar mexanizminin tətbiqində problemlər hələ də qalmaqdadır.

Hazırda hökumət kiçik və orta müəssisələrlə bağlı siyasətə yön verəcək ətraflı strategiyaya, eləcə də effektiv koordinasiya mexanizminə malik deyil. Ölkədə innovasiya fəaliyyətinin modelləşdirilməsi, stimullaşdırılması və bunlarla əlaqədar olaraq praktiki mexanizmlərin işlənib hazırılanması prioritetləri dövlət innovasiya siyasətinin əsasında yer almalıdır. Belə ki, innovasiyanın inkişafı olduqca mürəkkəb, texniki proseslərin və intellektual potensialın inkişafı ilə üzvi sürətdə bağlıdır. Bunlar isə öz növbəsində innovasiyanın inkişafına sistemli, əlaqəli və kompleks yanaşmağı tələb edir (Mahmudova L., 2019).

# III FƏSİL. KİÇİK VƏ ORTA SAHİBKARLIQDA İNNOVATİV FƏALİYYƏTİN TƏŞVİQİ

## 3.1. Dünya təcrübəsində KOS miqyasında innovativ fəaliyyətin təşviqi mexanizmləri

İnnovativ fəaliyyətin stimullaşdırılması aşağıdakıları əhatə edir: elmi və texnoloji inkişafların həyata keçirilməsinə yardım, tədqiqat nəticələrinin və texnoloji nailiyyətlərin həyata keçirilməsinə dəstək, əməkdaşlığın təşviqi, innovasiya prosesində iştirak edən təsərrüfat subyektləri.

Elmi-tədqiqat və təcrübə-konstruktor işləri sisteminin inkişafı və innovativ ideyaların, texnologiyaların, unikal məhsulların kommersiallaşdırılması bir biri ilə qarşılıqlı əlaqəli və qarşılıqlı asılıdır və buna görə də görülən dəstək tədbirləri vahid xarakter daşıyır. Dövlətin göstərdiyi dəstək tədbirlərini iki əsas istiqamətə ayırmaq olar: maliyyə-texnoloji və informasiya-konsultasiya.

Maliyyə-texnoloji dəstək dedikdə KOS-lar üçün birbaşa maliyyələşdirilmə (subsidiyalar və kreditlər), elmi-tədqiqat və təcrübə-konstruktor işləri üçün məqsədli subsidiyaların verilməsi, innovasiyaların tətbiqi fondlarının yaradılması və vergi güzəştlərinin tətbiq olunması, riskərin azaldılması üçün dövlət proqramlarının və əqli mülkiyyətin qorunması üçün qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi üçün mexanizmlərin hazırlanması başa düşülür. (İsmayılov A., Alıyev X. Ə. 2013)

Belə tədbirlərə nümunə olaraq, hələ 1982-ci ildə ABŞ-da qəbul edilmiş "Kiçik sahibkarlığın innovativ fəaliyyətinin inkişafı haqqında" qanunu göstərmək olar. Qanunun əsas vəzifələrinə aşağıdakılar daxildir:

- Texnoloji yeniliyin stimullaşdırılması;
- KOM-ların potensialından elmi tədqiqat və təcrübə konstruktor işlərinin həyata keçirilməsi üzrə federal sifarişlərin icrası üçün istifadə edilməsi; elmi və texnoloji fəaliyyətin kommersiallaşdırılması üçün dəstək göstərilməsi;
- istedadlı insanların texnoloji innovasiyalarla məşğul olmağa cəlb edilməsi;

- Xüsusi tədqiqat və inkişaf ehtiyaclarının ödənilməsi üçün innovasiya sahəsində fəaliyyət göstərən ABŞ şirkətlərinin ixtisaslaşmış siyahısının hazırlanması

Bu qanuna əsasən hazırlanan milli proqramlar arasında Kiçik Biznes İnnovasiya Tədqiqat Proqramı (SBIR) və Kiçik Biznes Texnologiyaları Transfer Proqramını (STTR) göstərmək olar. Amerika Birləşmiş Ştatlarının Kiçik Biznes İdarəsi (SBA) tərəfindən əlaqələndirilən bu proqramlar elmi-tədqiqat işləri üçün rəqabət əsasında büdcə maliyyələşdirilməsini təmin edir.

SBIR KOM-ların innovativ fəaliyyətlərini maliyyələşdirmək üçün müsabiqə proqramıdır, buna görə maliyyə dəstəyinin həcmi kiçik müəssisənin kvalifikasiya qiymətləndirməsinə, innovativ təklifin orijinallığına, sənaye üstünlüklərinə və ticarət perspektivlərinə əsaslanır. İştirak üçün müraciət edən şirkətlər özəl və kommersial olmalı, mənfəətlə fəaliyyət göstərməli, ABŞ vətəndaşına aid olmalı və müstəqil idarəetməyə malik olmalı, peşəkar tədqiqatçı, yaradıcı və analitikləri işə götürməli və işçilərin ümumi sayı 500 nəfərdən çox olmamalıdır.

SBA-nın məlumatına görə, hər il SBIR proqramı çərçivəsində ümumi dəyəri 2 milyard ABŞ dollarından çox olan altı mindən çox layihə həyata keçirilir.

“Kiçik Biznes İnvestisiya Şirkəti” (Small Business Investment Company – SBIC) proqramı 1958-ci ildə ABŞ Konqressi tərəfindən KOS-ların başlanğıc, inkişaf və sonrakı mərhələlərində risk və investisiya kapitalı ilə təmin edilməsi məqsədilə yaradılmışdır. Hazırda ABŞ-da SBIC proqramı çərçivəsində 300-dən çox investisiya şirkəti fəaliyyət göstərir. Bu şirkətlər öz şəxsi kapitallarından istifadə edərək və kredit vəsaitləri cəlb edərək KOS-lara müxtəlif növ investisiya və maliyyə menecmenti xidmətləri göstərirlər. Bu proqramın şəxsi investisiyalarla birlikdə ümumi dəyəri 20 milyard ABŞ dollarından çoxdur. Bir çox SBIC-lər innovativ KOM-lara vençur kapital qoyuluşlarını təmin etməyə yönəldilmişdir. ABŞ-ın Milli Vençur Kapitalı Assosiasiyasının məlumatına görə, Proqram çərçivəsində riskli investisiyalar yüksək texnoloji məhsula sahib olan KOM-larda 75 mindən çox yeni iş yeri yaratmışdır.

ABŞ-dakı innovativ KOB-lara yardım bir sıra digər hökumət proqramları çərçivəsində də verilir, məsələn: "Müdafiə kreditləri və texniki yardım" (Defence Loan & Technical Assistance - DELTA), "Enerji qənaət krediti" (Energy and Conservation Loan), "Çirklənməyə Nəzarət Krediti" (Pollution Control Loan) və s. İngiltərədə Kiçik Biznes Xidməti- (Small Business Service - SBS) KOM-lara maliyyə, məlumat, məsləhət, texniki və hüquqi dəstək verən yeni texnologiyaların tətbiqi üçün bir sıra proqramlar hazırlamışdır. SBS tərəfindən ən yaxşı texnologiyaların axtarışı və qiymətləndirilməsi, yeni məhsul və xidmətlər yaratma imkanlarının müəyyənləşdirilməsi, həmçinin onların gələcək inkişafı üçün 10 min funt sterlinqə qədər məbləğdə qrantlar, mürəkkəb innovativ texnologiyaların axtarışı və tətbiqi üçün 150 min - 450 min funt sterlinq məbləğində subsidiyalar və ya güzəştli kreditlər ayrılır.

Ümumiyyətlə, müxtəlif innovasiyaları sistematik şəkildə tətbiq edən müəssisələrin əksəriyyəti təhsil, səhiyyə, sosial xidmətlər, habelə ticarət, otel və restoran biznesində cəmləşmişdir.

İnnovativ KOS-ların üzləşdiyi ən ciddi problemlərdən biri əqli mülkiyyət hüquqlarının qorunmasıdır. Mürəkkəb texniki avadanlıq istehsal edən bir çox kiçik müəssisə sertifikatlaşdırma üçün tələb olunan rüsum və digər ödənişləri ödəyə bilmir. Bununla əlaqədar, Yaponiya hökuməti ABŞ-dan nümunə götürərək, əqli mülkiyyət hüquqlarının qeydiyyatı, qorunması və yayılması milli sisteminin təkmilləşdirilməsi üçün bir sıra təşkilati və qanunvericilik tədbirləri görmüşdür.

Əqli mülkiyyət hüquqlarının təmin edilməsi üçün infrastrukturun təkmilləşdirilməsi və məlumatların qorunması, saxlanması və yayılmasınna nəzarət olunması texnologiyaları sahəsindəki bütün beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi ilə patentləşdirmə, ticarət markaları, patent sənədləşməsi və digər əlaqəli normativ sənədlərə yenidən baxılmışdır. Qabaqcıl fərdi sahibkarlar və ixtiraçılar üçün fövqəladə hallarda iqtisadi və sosial sığorta sistemi daxil olmaqla xüsusi dəstək infrastrukturu fəaliyyət göstərir.

Yaponiyada KOM-ların dəstəklənməsi və inkişafı üzrə bütün milli infrastrukturun əlaqələndirilməsi Kiçik və Orta Sahibkarlıq Agentliyi (SMEA)

tərəfindən həyata keçirilir, o, bir sıra iri dövlət və müstəqil təşkilatlar, tədqiqat mərkəzləri və tədqiqat institutları, o cümlədən Yaponiya Kiçik və Orta Sahibkarlıq Regional İnnovasiyalar təşkilatı (Organization for SME and Regional Innovation of Japan - SMRJ) ilə fəal qarşılıqlı fəaliyyət göstərir.

İnnovativ KOS-lara hərtərəfli dəstək göstərmək məqsədilə SMRJ Agentliyi prefektura administrasiyaları və yerli ticarət və sənaye palataları ilə birlikdə Sahibkarlığa Vençur Dəstək Mərkəzləri, KOM-lar üçün Bələdiyyə Dəstək Mərkəzləri və KOM-lar üçün Regional Dəstək Mərkəzləri yaratmışdır.

Sahibkarlığa Vençur Dəstək Mərkəzləri perspektivli layihələrin seçilməsini həyata keçirir, fond birjasına daxil olmaq üçün strategiya hazırlayır, elmi tələbatlı və riskli layihələrin həyata keçirilməsində KOM-lara patent, maliyyə idarəetməsi ezrə, eləcə də, hüquqi və texniki məsləhət verir.

Bundan əlavə, Yaponiyada vençur kapitalı cəlb etmək üçün hüquqi şərait yaradılıb. İnnovativ biznesin dəstəklənməsi üçün müxtəlif mexanizmlər "KOM-ların yaradıcı fəaliyyətinin təşviqi haqqında qanun"-la təmin edilmişdir.

Kiçik müəssisələrə texniki sənədlərin hazırlanmasında effektiv şəkildə dəstək göstərmək üçün Yaponiyanın Sənaye Dizaynının Təşviqi Təşkilatı (Japanese Industrial Design Promotion Organization - JIDPO) cəlb olunmuş, bu da bir çox KOM-lara yüksək texniki səviyyədə yeni məhsullar və müəssisələrin modernləşdirilməsi üçün layihələr hazırlamağa imkan vermişdir.

Cənubi Koreyada isə KOM-ların dövlət dəstəyi və inkişafı sisteminə 35 maliyyə yardımı proqramı və 8 əsas texniki dəstək proqramı (daşınmaz əmlak tikintisi; məsləhət xidmətləri, təlim; mütəxəssislərin xaricdə təcrübə keçməsi; sərgilərin təşkili; məlumatlandırma; ISO45 tələblərinə uyğun istehsalat, məhsul və xidmətlərin sertifikatlaşdırılması; ticarət danışıqlarında vasitəçilik, digər ölkələrdə və beynəlxalq bazarlarda təmsilçilik; beynəlxalq əməkdaşlığın inkişafı) daxildir.

1982-ci ildə Çində (ÇXR) elmi parkların yaradılması əsasında sosial-iqtisadi sahədə innovasiyalar proqramı qəbul edildi. Beləliklə, 1985-ci ildə Shenzhen şəhərində hökumət tərəfindən 316 hektar ərazi pulsuz olaraq ayrıldı və ilk elmi

parkın yaradılması maliyyələşdirildi. Parkdakı yer yalnız qabaqcıl texnologiyalara, bazar tələbatına və ixrac potensialına sahib şirkətlərə verilirdi.

1986-cı ilin mart ayında hökumət “Proqram 863” (Yüksək Texnologiyaların İnkişafı Planı) təsdiqlədi, burada yüksək texnoloji sahələrin inkişafı üçün prioritet sahələr kimi: mikroelektronika və kompüter elmləri; aerokosmik sənaye; fiber optik rabitə; gen mühəndisliyi və biotexnologiya; yeni enerjiyə qənaət texnologiyaları; ətraf mühitin qorunması maşın və avadanlıqları; tibbi avadanlıqlar sahələri müəyyən edildi. Elmi və texnoloji nailiyyətlərin tətbiqi ilə kənd təsərrüfatını inkişaf etdirmək üçün həmin il “İskra” dövlət proqramının icrasına başlandı. 1988-ci ildə şirkətlərə innovasiyaların kommersiallaşdırılması üzrə dəstək göstərən “Məşəl” ümumi proqramı qəbul edildi.

Bu gün Çində, texnoloji parklar ("Yüksək Texnologiya Zonaları") fəaliyyət göstərir, onların 16 mindən çox tədqiqat və inkişaf fəaliyyəti ilə məşğul olan müəssisələri var.

Hindistanda KOM-ların innovativ fəaliyyətinə dəstək aşağıdakı istiqamətlərdə formalaşır:

- müxtəlif maliyyə institutları və banklar vasitəsilə innovativ KOM-lara kredit verilməsində vahid siyasətin yürüdülməsi;
- Texnoloji yeniləmə və təkmilləşdirmə layihələrinin maliyyələşdirilməsi;
- xidmət infrastrukturunun genişləndirilməsi və təkmilləşdirilməsi;
- KOM sektorunun istehsal infrastrukturuna bərabər çıxışını təmin etmək;
- sınaq, keyfiyyətə nəzarət və məhsul sertifikatı üçün müasir laboratoriyalar şəbəkəsini yaratmaq;
- Xüsusi təhsil müəssisələrində menecerlərin davamlı təhsili ilə müəssisə idarəçiliyinin ən yeni metodlarının fəal şəkildə təşviqi.

Kiçik müəssisələrin rəqabət qabiliyyətini artırmaq məqsədi ilə Hindistandakı KOM-lar Nazirliyi aşağıdakı üç proqramı həyata keçirir: "Yeni texnologiyaların inkişafında maliyyə yardımı", "Müəssisələrin rəqabət qabiliyyətinin yaxşılaşdırılması", "Müəssisələrin İSO 9000 standartlarına keçidinin təmin edilməsi".

Qeyd etmək lazımdır ki, rəqabətqabiliyyətli innovativ istehsalın stimullaşdırılmasının ən perspektivli sahələrindən biri ünvanlı vergi güzəştlərinin istifadəsidir:

Uzunmüddətli istehsal dövrü olan məhsullar üçün avans ödəmələrin ƏDV-dən azad olunması; investisiya layihəsinin geri ödəmə dövründə gəlir vergisinin azaldılması; idxal olunan avadanlıq və materiallar üçün gömrük rüsumlarının və ƏDV-nin azaldılması və tədricən azad edilməsi; elmi-tədqiqat xərclərindən vergituttmaların azaldılması miqdarı; sənaye avadanlıqlarının istifadəsini stimullaşdırmaq üçün olan əmlakdan vergi dərəcələrinin azaldılması və s.

Hindistanda elmi texniki parklara və onlarda yerləşən müəssisələrə gəlir vergisi üçün 10 ilə qədər vergi tətili verilir.Macarıstanda sahibkarlar, o cümlədən xarici investorlar məqsədli büdcə subsidiyaları və əhəmiyyətli vergi güzəştləri ala bilərlər. Burada dörd növ vergi güzəşti nəzərdə tutulur:

İnvestisiyaları (o cümlədən, KOS sektoruna) stimulla.dırmaq üçün ümumi vergi güzəştləri; xüsusi olaraq KOS fəaliyyəti iləməşgul oanlar üçün vergi güzəştləri; ETTKİ –ni stimullaşdırmaq üşün vergi güzəştləri; regional vergi güzəştləri.Oxşar vergi sistemi Polşada da fəaliyyət göstərir (Klonowski D., 2012).

Almaniyada KOM-lar üçün iki böyük vergi güzəşt qrupu mövcuddur: yeni yaranan firmalara yarandıqları il üçün güzəşt və daimi güzəştlər. .Mövcud sistem çərçivəsində kiçik müəssisələr, vergi tutulan mənfəətini maşın və avadanlıq almağa yönəldilən ehtiyat fondlarının miqdarına yönəltməklə azaltmaq hüququna malikdirlər. Bundan əlavə, amortizasiya xərcləri üçün güzəştli şərtlər də KOM-lara istehsal və innovasiya prosesini modernləşdirməyə imkan verir.

Fransa vergi qanunu vergi ödəyicisinin dövriyyəsinin həcmindən asılı olaraq, kiçik müəssisələr üçün sadələşdirilmiş və hesablanmış vergilərin tətbiqini nəzərdə tutur. Mikro müəssisələr sadəcə vergi bəyannaməsini doldururlar və çox sadələşdirilmiş bir sxemə görə vergi ödəyirlər. Tərifinə görə mikro müəssisələrin gəlirləri ƏDV ödəyiciləri üçün müəyyən edilmiş həddən aşağı olur. Kiçik və orta sahibkarlar üçün də mənfəət deklorasiyası və vergi ödəmək üçün sadələşdirilmiş vergi rejimi mövcuddur.

ABŞ-da innovasiyanı stimullaşdırmaq məqsədi ilə qanun bir çox xərclərin vergidən azad edilməsini nəzərdə tutur: sənədlərin, avadanlıqların, prototiplərin alınması, sınaq, patent xidmətləri üçün ödəniş və s.

Çində mərkəzi hökumət tərəfindən verilən güzəştlərdən əlavə yerli idarəetmə orqanları da investorları cəlb etmək üçün əlavə güzəştlər tətbiq edirlər.

Beləliklə, innovativ KOM-ları dəstəkləmək üçün maliyyə və texnoloji alətlər, güzəştli kreditlərin verilməsi, elmi-texniki laboratoriyalar, dövlət zəmanəti, əməliyyatlar sığortası, yeni məhsul və texnologiyaların inkişafı üçün müqavilələrin bağlanması, vergi güzəştləri və s.lazımdır.

Əlbəttə ki, qlobal iqtisadiyyatda baş verən böhran hadisələri bir çox ölkələrdə büdcə xərcləmələrinə yenidən baxılmasına səbəb olur  ki, bu da KOM-lar üçün dövlət təşviq proqramlarının maliyyələşdirilməsinin (məsələn, SBIR proqramları) dayandırılması və ya azaldılmasında özünü göstərir. Ancaq böhran dövrlərində belə, hökumətlər KOM-lara dəstək verməkdən imtina etmir,  dövlətin və biznesin innovativliyini artıran milli iqtisadiyyatların inkişafı üçün prioritet sahələrə diqqət göstərirlər.

İnnovasiya prosesində, məlumat və məsləhətləşmədə iştirak edən KOS-lara dövlət dəstəyinin digər bir sahəsi kiçik müəssisələrə lazımi informasiyaları vermək və innovativ fəaliyyətlə bağlı məsləhət verməkdir.

Böyük Britaniyanın hər yerində kiçik müəssisələrə geniş çeşidli məsləhət xidmətləri verilir.

Yaponiyada yuxarıda adı çəkilən Sahibkarlığa Kömək Venşur Mərkəzləri geniş mövzularda (vençur biznesi, qiymətli kağızlar bazarı, idarəetmə metodları, innovativ fəaliyyətlər, yeni texnologiyalar və s.) mühazirələr və seminarlar keçirir, həmçinin biznes inkubatorları və texnoparkları biznesin planlaşdırılması, satış şəbəkəsinin genişləndirilməsi, müəllif hüquqlarının qorunması və digər mürəkkəb məsələlər. rə məsləhətçilərlə təmin edir.

Regional Sahibkarlığa Dəstək Mərkəzləri sahibkarlara mövcud dəstək mənbələri (maliyyə, texnologiya, materiallar, istehsal vasitələri, avadanlıqlar, mütəxəssislər) barədə məsləhət verir. Bununla yanaşı, həmin mərkəzlər sahibkarlar

üçün təlim proqramları həyata keçirir və geniş mövzularda (idarəetmə, texnologiya, logistika, xarici ticarət və s.) seminarlar keçirir.

ABŞ-da innovasiyaların inkişafına operativ məlumat, məsləhət və metodiki dəstək üçün bir çox elektron şəbəkə mövcuddur.

ABŞ-da yeni texnologiyaların, o cümlədən innovativ KOS-ların inkişafına kömək edəcək kifayət qədər perspektivli mexanizmlər arasında fəaliyyət göstərən aşağıdakı iki proqram qeyd etmək lazımdır:

- "İşgüzar İnformasiya Mərkəzi" (Business Information Center BİS) proqramı-müasir avadanlıq, rabitə sistemləri və proqram təminatları vasitəsi ilə kiçik müəssisələrdə ən son yüksək texnoloji iş metodlarından istifadəni təşviq edən 400-ə yaxın məlumat mərkəzinin fəaliyyətini dəstəkləmək məqsədi daşıyır.
- "Sabiq top-menecerlərdən ibarət məsləhətçilər korpusu" (Service Corps of Retired Executives - SCORE) məsləhət proqramı, yeni başlayanlara və fəaliyyətdə olan sahibkarlara texniki, təşkilati və maliyyə problemləri ilə əlaqədar müxtəlif mövzularda pulsuz məsləhətlər sistemi təklif edir.

Bundan əlavə, məsləhət və praktiki məşğələlər birbaşa müəssisələrdə həyata keçirilə bilər. SCORE çərçivəsində ölkənin müxtəlif yerlərindəki bütün KOM dəstək mərkəzləri ilə işləyən 110000-dn cox könüllü məsləhətçi var. Bu proqramın həyata keçirilməsi, sahibkarlığın müxtəlif sahələrində yeni texnologiyaların sürətli inkişafına töhfə verməklə yanaşı, yüksək ixtisaslı mütəxəssislərin təcrübəsinin gənc sahibkar nəslinə ötürülməsini təmin edir. SCORE məsləhətçilərinin fəaliyyəti qismən SBA büdcəsi hesabına maliyyələşdirilir.

Kanadada bazar araşdırmaları Bazar Araşdırmaları Mərkəzi (MRC), Kanada Ticarət Sektoru (TTCS), Beynəlxalq Biznes İmkanları Mərkəzi (IBOC) kimi təşkilatlar tərəfindən aparılır.

TTCS KOS-lar üçün ticarət reklam tədbirlərini planlaşdırır və həyata keçirir, ticarət missiyaları, yarmarkaları təşkil edir, əlaqə qurmağa kömək edir və hədəf bazarları haqqında məlumatlarla təmin edir. Sistemin əsas elementi müqavilələrin təmin edilməsi imkanları barədə məlumat yaymaq üçün MERX elektron tender sistemidir.

1997-ci ildən bəri Kanada İnnovasiya Fondu - CFI fəaliyyət göstərir ki, bu da innovativ müəssisələrə ənənəvi maliyyə dəstəyi ilə yanaşı kiçik innovatorlara informasiya xidmətləri göstərir.

BMT-nin İnkişaf Proqramının dəstəyi ilə Bolqarıstanın Əmək və Sosial Siyasət Nazirliyi "Biznes dəstəyi ilə iş yerləri" layihəsini həyata keçirdi, bunun sayəsində 37 konsaltinq və 24 məlumat mərkəzlərindən ibarət şəbəkə yaradıldı.

2008-ci ildən bəri Koreyada Təhsil, Elm və Texnologiya Nazirliyi (MEST), Bilik İqtisadiyyatı Nazirliyi (MKE) innovativ məsələlərlə məşğul olur, innovatv KOM-lar üçün prioritet inkişaf sahələri haqqında tam məlumat verməklə davamlı konsultasiya xidmətləri göstərir.

Hindistanda milli səviyyədə Kiçik Müəssisələr Məlumat və Resurslar Şəbəkəsi (SENET) yaradılmışdır.

Digər ölkələrdə də kiçik müəssisələrin innovasiyalarının artırılmasına yönəlmiş bu kimi milli məlumat və məsləhət proqramları mövcuddur, məsələn, Çexiyada – Inovace of the Czech Republic, Meksikada - CDE's Plus, Portuqaliyada INOVJovem və INOVContacto, Türkiyədə - KOSGEB və s.

Beləliklə, hökumətin innovativ KOS-ları dəstəkləmək imkanları bir-birini dəstəkləyən iki əsas istiqaməti- maliyyə -texnoloji və məlumat- konsaltinq sahələrini əhatə edir. Birinci istiqamət, kiçik biznesə dəstək üçün ən vacib və ən mütərəqqi təşkilatların inkişafı, o cümlədən kreditləşmə, zəmanət sxemləri, investisiya dəstəyi, innovativ zəncirlər və vergi güzəştləri sistemini, ikincisi, isə əsas funksiyası kiçik biznes nümayəndələrinə innovativ fəaliyyətə yönələn məlumat və məsləhət yardımı olan birbaşa məlumat xidmətlərinin yaradılmasını özündə cəmləşdirir.

## 3.2. Azərbaycanda KOS miqyasında innovativ fəaliyyətin təşviqi üzrə tədqiqat

Bazar iqtisadiyyatının formalaşmaqda olduğu ölkələrdə ideal bazar mühitinin yaranmasının əsas amillərindən biri də sahibkarlığın formalaşması və inkişafıdır. İstənilən sahibkar qazancını maksimum dərəcədə artırmağa çalışır və onun maddi rifahı biznesinin inkişafından və şirkətin gəlirindən asılıdır. Sahibkar cəmiyyət üçün zəruri olan mal və xidmətlər istehsal edir, yeni bazarlar və yeni iş yerləri yaradır,

başqaları tərəfindən yaradılan mal və xidmətləri istehlak edir və müvafiq vergi ödəyir. Buna görə ölkədə sahibkar nə qədər uğurlu olarsa, onun qazancı nə qədər çox olarsa ölkə də bir o qədər zəngin olar. Bazar iqtisadiyyatını qəbul edən ölkələrdə sahibkarlığın ölkədəki ümumi sosial-iqtisadi vəziyyətə müsbət təsiri vardır. Dövlət sektoruna alternativ iqtisadiyyat yaratmaqla, sahibkar rəqabət mühiti və əlavə iş yerləri yaradır və bununla da cəmiyyətdəki sosial gərginliyi azaldır. Hal-hazırda iqtisadi şaxələndirmənin həyata keçirilməsi üçün Azərbaycan iqtisadiyyatında sahibkarlıq amilinin geniş yayılması zəruridir. Neft amilinin ölkə iqtisadiyyatına təsirini minimuma endirmək və sahibkarlığın inkişafı ilə iqtisadi artım hesabına qeyri-neft sektorunun ÜDM istehsalında payını artırmaq prioritet məsələ olmalıdır. Cəmiyyət, eləcə də dövlət, hazırda dünyada baş verən hadisələrdən nəticə çıxarmalı, sahibkarlığn inkişaf etdirilməsi və daxili bazarın yerli məhsullarla təmin edilməsi üzərində daha çox düşünməlidir.

Son aylarda bütün dünyanı sarsıdan koronavirus (COVİD-19) pandemiyası əhalinin özünü  məşğuluğunun əhəmiyyətini bir daha gündəmə gətirdi. Çox qısa bir müddət ərzində dünyanın bütün ölkələrində yayılan və dövlətləri sağlamlıq və iqtisadiyyatın davamlılığı arasında dilemmada qoyan pandemiya bütün dünyada karantin rejiminin tətbiqi ilə nəticələndi. İqtisadiyyatın turizm, ictimai-iaşə, əyləncə və s. daxil olmaqla bir sıra sektorları pandemiya səbəbilə demək olar ki tamamilə dayanmış, e-ticarət, onlayn tədris, virtual əyləncə və digər sektorlar böyümüşdür. 2 ay qədər qısa bir müddətdə dünya iqtisadiyyatında bazar şəraiti köklü surətdə dəyişmişdir. Bu dəyişikliyin təsirlərinin nə qədər davam edəcəyi proqnozlaşdırıla bilməsə də, bir çox elmi mənbələr sözügedən pandemiyanın iqtisadiyyat üçün bir dönüş nöqtəsi xarakteri daşıyacağını istisna etmirlər. Daha əvvəl qeyd olunduğu kimi, KOS-lar üçün səciyyəvi olan cəhətlərdən biri də onların dəyişən bazar şəraitlərinə çevik uyğunlaşma, bazarın tələblərini qısa bir müddət ərzində qarşılaya bilmə qabiliyyətləridir. “Koronavirus” və “Post-Koronavirus” dövrlərində dünya iqtisadiyyatında baş verən dəyişikliklərə uyğunlaşaraq ölkə iqtisadiyyatlarını dayanıqlılığını təmin edəcək olanlar məhz KOS-lardır. KOS-ların innovativ fəaliyyətə cəlb olunması, onların innovativ fəaliyyətinin dövlət tərəfindən müxtəlif

mexanizmlərlə təşviq olunması bu baxımdan müstəsna əhəmiyyət daşıyır.

*"İqtisadiyyatın dinamik və davamlı inkişafının təmin edilməsində innovasiyaların mühüm əhəmiyyəti vardır. Qeyd olunan sahənin inkişaf etdirilməsi, ilk növbədə, əlverişli innovasiya mühitinin formalaşdırılmasından asılıdır. İnnovativ iqtisadiyyat prinsiplərinə əsasən, texniki və texnoloji bazanın davamlı olaraq yenilənməsi və dünya bazarlarına rəqabətqabiliyyətli yeni məhsul və xidmətlərin çıxarılmasında innovasiyalar başlıca rol oynayır."*

("Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi", 2016)

Biznes mühitinin formalaşdırılması eləcə də sahibkarlığın inkişafının sürətləndirilməsi və dövlət dəstəyinin artırılması üçün dövlət bir sıra zəruri iqtisadi siyasətlər həyata keçirməlidir. Bu cür siyasətlər investisiya mühitinin xeyli yaxşılaşması və müəssisələrin uğur əldə etmələri üçün maksimal imkanlar yaradır.

Dünyanın bir çox ölkələrində olduğu kimi, sahibkarlığa dəstək Azərbaycanda da dövlət iqtisadi siyasətinin əsas istiqamətlərindən biridir. Azərbaycanda dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biri olan biznes mühitinin inkişafının sürətləndirilməsi məqsədilə bir sıra zəruri islahatlar həyata keçirilmişdir. Bu islahatların əsas məqsədi dövlətlə sahibkarlar arasındakı münasibətlərin inkişaf etdirilməsi, siyasi və sosial stabillik, iqtisadi siyasətin proqnozlaşdırıla bilməsi, korrupsiyanın ləğvi tədbirləri, gömrük prosedurlarının sadələşdirilməsi, biznes mühitində baş verən və sahibkarların fəaliyyətinə mənfi təsir edən süni müdaxilələrin aradan qaldırılması, sahibkarlara dövlət dəstəyinin təşviqi, elektron hökumət xidmətlərinin tətbiqinin genişləndirilməsidir. Bu istiqamətdə çox mühüm addımlar atılmışdır. Buna misal olaraq qanunvericilik bazasının təkmilləşdirilməsi, sahibkarların fəaliyyətinə əngəl olan süni müdaxilələrin aradan qaldırılması, dövlət büdcəsindən kiçik və orta sahibkarlıq subyektlərinə ayrılmış vəsaitlərin həcminin artırılması, inzibati prosedurların sadələşdirilməsi, sahibkarlara lisenziyaların müddətsiz verilməsi, vergi güzəştlərinin tətbiqi, sahibkarlıq subyektlərinin qeydiyyatının sadələşdirilib "bir pəncərə" prinsipi əsasında elektron qaydada aparılması, inhisarçılıq fəaliyyətinin qarşısının alınması, maliyyə dəstəklərinin göstərilməsi və s. göstərmək olar.

2017-ci ilin 28 dekabr tarixində ölkə Prezidentinin fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində “Azərbaycan Respublikası Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi” (KOBİA) yaradılmışdır. Bu agentliyin əsas vəzifəsi ölkəmizdə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, KOS-lara müxtəlif xidmətlərin göstərilməsi, sahibkarlıq subyektləri arasında rəqabət qabiliyyətinin artırılması, dövlət dəstəyi tədbirlərinin səmərəsinin və əlverişliliyinin yüksəldilməsi, eləcə də ölkənin biznes mühitinin formalaşdırılması məqsədini daşıyır. Bu fərmanda müəyyən edilmiş vəzifələrə uyğun olaraq, Agentlik KOS-lara dəstək infrastrukturunun gücləndirilməsinə dəstək göstərməli, həmçinin KOS subyektlərinə dəstək məqsədilə yerli və xarici təşkilatlarından maliyyə vəsaitlərinin cəlb edilməsi, məqsədli proqramların hazırlanması və icrasının təşkilini təmin etməlidir.

Agentliyin daha bir fəaliyyət istiqaməti KOS subyektlərinə təlim-tədris, məsləhət, innovasiya, hüquq, maliyyə xidmətlərinə, eləcə də, informasiya-kommunikasiya və kadr resurslarına çıxış, marketinq və satışa dəstək, korporativ idarəetmə, layihələrin idarə olunması və digər bu kimi beynəlxalq təcrübədə tətbiq edilən mexanizmlərin, o cümlədən, dövlət orqanları və təşkilatları tərəfindən göstərilən xidmətlərin vahid məkanda – “KOS evləri”ndə təşkili və sahibkarlara göstərilən dövlət xidmətlərinin rəqəmsallaşdırılmasıdır.

Belə bir siyasət nəticəsində sahibkarlıq üçün qanunvericilik, təşkilati və iqtisadi şərtləri, qanunsuz müdaxilə və süni əngəllərə qarşı mübarizə, sahibkarlığa dövlət dəstəyi mexanizmləri daim təkmilləşdirilir və onun inkişafı getdikcə fərdi tədbirlərə deyil, dövlət proqramlarına əsaslanır.

İnkişaf etmiş ölkələrin sahibkarlığı təşviq etmə təcrübəsi göstərir ki, bütün ölkələr üçün ortaq olan bir sıra ümumi sahələr vardır. Bu məqsədlə, dövlətlər hərtərəfli proqramlar hazırlayır və qanunvericilik, vergi, gömrük, kredit, dövlət sifarişləri, subsidiyalar, mükafatlar, zəmanətlər, məlumat, marketinq, maliyyə bazarının tənzimlənməsi və s. ehtiyatlarını  iqtisadi metodlar və vasitələr olaraq həyata keçirir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"nin 7.5.1. bəndində Milli innovasiya sisteminin təkmilləşdirilməsi prioritet olaraq hədəf götürülmüşdür.

Bazar münasibətləri inkişaf etdikcə iqtisadiyyatın dövlət tənzimlənməsinin birbaşa və inzibati forma və meylləri də əsasən iqtisadi və dolayı tənzimlənməyə dəyişir.

Rəqabətə əsaslanan liberal iqtisadi mexanizm ilk növbədə bazar mühitini təşkil edən kiçik biznesin inkişafı ilə əlaqələndirilir. Real iqtisadiyyatda dəyişən sosial tələbə dinamik və sürətli reaksiya vacibdir. Kiçik müəssisələr öz fəaliyyətlərində çevik və səmərəlidir və dəyişən şərtlərə aşağı xərclərlə uyğunlaşırlar. Kiçik biznesin bütün bu xüsusiyyətləri böyük müəssisələr yaratmağa, məcmu tələb və təklifi artırmağa və böyük müəssisələrin praktik olaraq məqsədəuyğun olmadığı və müflisləşdiyi bir vaxtda iqtisadi böhranı aradan qaldırmağa imkan verir. Beləliklə, kiçik biznesin inkişafı bazar iqtisadiyyatı şəraitində obyektiv zərurətdir (Kazımov V. Ə., 2010).

Kiçik və orta sahibkarlıq iş yerlərini yaradan zəruri və qanuni iqtisadi hadisədir. İnsanlar yeni iş yerləri yaratmaq və eyni zamanda məcmu tələbi artırmaq üçün öz sahibkarlıq bacarıqlarından istifadə edirlər. Kiçik biznes üçün aşağıdakı xarakterik xüsusiyyətləri ayırd etmək olar:

- rəqabət münasibətlərinin formalaşdırılması;
- məhsulun keyfiyyətini yaxşılaşdırmaq və çeşidini genişləndirmək;
- İqtisadiyyatın struktur dəyişikliklərinə təsiri;
- korporativ sosial siniflərin formalaşması;
- müxtəlif əhali qruplarının genişmiqyaslı əmək fəaliyyətinə cəlb edilməsi;
- yerli xammalın mənimsənilməsi və istifadəsi;
- dövlətin az qazanclı və zərərli müəssisələrdən azad edilməsi (icarə, alış yolu ilə)

Hazırda Azərbaycanda kiçik və orta sahibkarlığın təşviqi sahəsində vacib məsələlərdən biri investisiya fəaliyyətinin aktivləşdirilməsi və bu sektora maliyyə mənbələri cəlb etmək imkanlarının genişləndirilməsidir. Kiçik və orta sahibkarlıq

subyektləri üçün vəsait çatışmazlığı, dövlət büdcəsindən sektora məhdud giriş, kommersiya banklarının, eləcə də beynəlxalq və xarici maliyyə qurumlarının kredit resurslarının yüksək faiz dərəcələri kiçik və orta sahibkarlığın işini çətinləşdirr. Qeyd etmək lazımdır ki, Azərbaycanda bazar iqtisadiyyatına keçid dövründə kiçik və orta sahibkarlığın zəif inkişafına təsir göstərən əsas amillərdən biri də maliyyə amilləri olub. Bu, bir tərəfdən maliyyə mənbələrinin məhdud olması ilə izah olunursa, digər tərəfdən verilmiş kreditlərdən səmərəsiz istifadə ilə izah edilə bilər.

Kiçik və orta sahibkarlığın əsas maliyyə mənbəyi dövlət büdcəsi, kommersiya banklarının kredit resursları, beynəlxalq bankların və maliyyə təşkilatlarının kredit xətləridir (Əhmədov M.A., Hüseyn A.C., 2011).

Azərbaycanda kiçik və orta sahibkarlığa dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi məqsədi ilə dövlət büdcəsindən vəsait ayrılır. Bu vəsaitlər uzunmüddətli güzəştli kredit şəklində sahibkarlığın prioritet sahələrində investisiya layihələrinə yönəldilmişdir. Lakin ölkədə sahibkarlıq fəaliyyəti üçün kreditləşmə sahəsində olan çətinliklər kiçik və orta sahibkarlara bu maliyyə mənbələrindən tam istifadə etməyə imkan vermir.

Eyni zamanda, ölkə iqtisadiyyatında makroiqtisadi sabitliyin yaratdığı imkanlar KOM-ların inkişafını sürətləndirmək üçün tam istifadə edilməmişdir. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin sayı ola biləcəyindən xeyli azdır. Özəl sektorun ölkənin iqtisadiyyatında yüksək payı olsa da, bu sektor hələ də strateji əhəmiyyətli struktur olaraq zəif inkişaf etmişdir. Kiçik və orta sahibkarlıq sektorunun ölkənin ixracın potensialına və strukturunun yaxşılaşdırılmasına təsiri məhduddur. Sahibkarlığın indiki regional inkişaf səviyyəsi ölkənin mövcud potensialına uyğun deyil. Buna görə də indi kiçik və orta sahibkarlığın 70 faizi Bakı və onun ətraflarında cəmləşmişdir. Yerli istehsalçılar arasında əlaqələr zəifdir və böyük KOS-ların əməkdaşlığı və inteqrasiyası lazımi səviyyəyə çatmamışdır.

Azərbaycanda sahibkarlığın regional inkişafında bir sıra problemlər mövcuddur. Buna səbəb kiçik və orta sahibkarlığın əsasən Bakıda cəmləşməsidir. Son on beş ildə bölgələr və Bakı arasındakı inkişaf göstəricilərinin ölkə biznesində əldə olunan dinamik makroiqtisadi göstəricilər fonunda bir qədər müsbət olmadığını

görürük. Xüsusilə, ÜDM-in 70% -dən çoxu Bakı-Abşeron İqtisadi Zonasının payına düşür, sahibkarlıq subyektlərinə qoyulan investisiyaların 80% -dən çoxu və vergi daxilolmalarının təxminən 80-85% -i paytaxtdan və ona bitişik rayonlardan gəlir.

Ölkədə sahibkarlıq mühitinin inkişafı istiqamətində bir sıra addımlar atılmışdır. Bununla belə, Azərbaycanda sahibkarlığın inkişafı üçün son illərdə görülmüş bu və digər tədbirlərə baxmayaraq bir sıra problemlər öz həllini tapmamışdır. Problemlər ən çox bölgələrdə özünü büruzə verir. Regionlardakı sahibkarların ölkənin böyük bazarlarına, eləcə də xarici bazarlara çıxışını təmin etmək üçün müəyyən bir işlək mexanizm olmadığından bölgələrdəki əksər sahibkarlar üçün istehsal etdiyi məhsulu satmaq problemdir. İnkişaf etmiş qərb ölkələrindən fərqli olaraq, Azərbaycanda əksər sahibkarlar istehsalatdan əvvəl marketinq fəaliyyəti həyata keçirmir. Sahibkarlığın İnkişafı Fondu və KOBİA mütəxəssisləri tərəfindən bazar araşdırılaraq gələn il hansı məhsulların sərfəli olacağı və bu məhsullara harada ehtiyac olacağı müəyyən edilə bilər. Bu qurumlar regional sahibkarların aşağdakı problemlərinin həllinə kömək edə bilər:

- bölgələrdəki kiçik və orta sahibkarlıq subyektlərinin işlərinin əlaqələndirilməsi;
- marketinq fəaliyyətinin həyata keçirilməsinə kömək etməklə mal və xidmətlərin satılması probleminin həlli;
- Azərbaycanda bölgələr arasında iqtisadi əlaqələrin genişlənməsi;
- yeni iş yerlərinin yaradılması və yerli əmək ehtiyatlarından istifadə;
- yerli xammal ehtiyatlarının istehsala cəlb edilməsi və onlardan səmərəli istifadə edilməsi;
- bölgələrdə işləyən KOS-larla ozəl sektorun problemləri ilə məşğul olan xarici təşkilatlar arasında əlaqələrin genişləndirilməsi;
- Bölgələr və kəndlərdə sosila-mədəni həyat səviyyəsinin yüksəldilməsi;
- demoqrafik dəyişiklərin, miqrasiyanın qarşısının alınması
- Bələdiyyələr bölgələrdə sahibkarlığın maliyyələşdirilməsi məsələlərinin həllində iştirak edə bilərlər.

Azərbaycanda kiçik və orta sahibkarlığın sayı artsa da, onların ölkə iqtisadiyyatına verdiyi töhfələr o qədər də böyük deyil.

KOS-ların inkişafına mane olan amillərdən biri maliyyə mənbələrinə zəif çıxışdır. Ölkədəki biznes mühitini qiymətləndirərkən həm beynəlxalq təşkilatlar, həm də yerli təşkilatlar KOS-ların işlərini inkişaf etdirmək üçün lazım olan maliyyə mənbələrini cəlb etməyin çətinliyini vurğulayırlar. Sahibkarlardan bəziləri daxili imkanlarını artırmaqla maddi ehtiyaclarını həll etməyə çalışsalar da, az hissəsi xarici mənbələrə müraciət edirlər. Azərbaycanda fəaliyyət göstərən kiçik və orta müəssisələr maliyyə mənbəyi kimi əsasən bank kreditlərinə üstunlük verirlr. Lakin yüksək kredit faizləri və güzəşt müddətinin az olması KOS-ların bu mənbələrə çıxışını zəiflədir.

Araşdırma göstərir ki, Azərbaycanda kiçik və orta biznes özündə müəyyən qədər potensial formalaşdırmışdır. Belə ki,, kiçik və orta sahibkarlığın inkişafının hazırki səviyyəsi bazar iqtisadiyyatının formalaşmasının ilkin mərhələsinə uyğundur, bununla belə, hələ ki, öz potensial imkanlarının tam reallaşdırılmasından uzaqdır.

**Cədvəl 10: Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makro-iqtisadi göstəriciləri**

| **Göstəricilər** | **2018** | | | |
|---|---|---|---|---|
| | **Cəmi** | **o cümlədən** | | |
| | | **Mikro** | **Kiçik** | **Orta** |
| Yaradılmış əlavə dəyər*, mln manat | 9836,6 | 4467,8 | 1235,5 | 4133,3 |
| İşçilərin sayı, min nəfər | 283,4 | 35,0 | 76,1 | 172,4 |
| Orta aylıq nominal əməkhaqqı, manat | 445,3 | 294,9 | 373,5 | 517,1 |
| Əsas kapitala investisiyalar, mln manat | 6953,0 | 2831,5 | 1046,7 | 3074,8 |
| Yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin dəyəri, mln manat | 17401,6 | 7082,9 | 2282,0 | 8036,8 |

**Mənbə:** https://www.stat.gov.az/source/entrepreneurship/az/002.xls

**Cədvəl 11: Ölkə iqtisadiyyatında mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payı, faizlə**

| Göstəricilər | 2018 | | | |
|---|---|---|---|---|
| | Cəmi | o cümlədən | | |
| | | Mikro | Kiçik | Orta |
| Əlavə dəyər* | 13,4 | 6,1 | 1,7 | 5,6 |
| qeyri neft-qaz sektoru üzrə* | 23,5 | 10,7 | 3,0 | 9,8 |
| İşçilərin sayı | 42,9 | 5,3 | 11,5 | 26,1 |
| qeyri neft-qaz sektoru üzrə | 45,0 | 5,6 | 12,1 | 27,3 |
| Əsas kapitala investisiyalar | 41,8 | 17,0 | 6,3 | 18,5 |
| qeyri neft-qaz sektoru üzrə | 65,2 | 26,5 | 9,8 | 28,8 |
| Yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin dəyərində payı | 20,9 | 8,5 | 2,7 | 9,6 |
| qeyri neft-qaz sektoru üzrə | 37,7 | 15,4 | 4,9 | 17,4 |

**Mənbə:** https://www.stat.gov.az/source/entrepreneurship/az/002.xls

İnkişaf etmiş iqtisadiyyatların yolu ilə gedən Azərbaycan dövləti xüsusilə dövlət müəssisələrinin özəlləşdirilməsi, sənaye parkları və xüsusi iqtisadi zonaların yaradılması vasitəsilə ölkəyə xarici investisiyalar cəlb etməyə çalışır.

Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində makroiqtisadi sabitlik qorunub saxlanılmış, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, kiçik və orta sahibkarlıq sahələrinin və bütövlükdə regionların tarazlı inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarından səmərəli istifadə təmin olunmuş, əlverişli biznes mühiti formalaşmış və əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır. Ölkə iqtisadiyyatının neftdən asılılığının minimuma endirilməsi və sahibkarlığın inkişafına əsaslanan rəqabətqabiliyyətli milli iqtisadiyyata çevrilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində tədbirləri davam etdirmək əsas strateji hədəflərdən biri kimi müəyyən edilmişdir.

Əlverişli biznes mühitinin formalaşması baxımından ölkədə stimullaşdırıcı vergi mexanizmlərinin rolunun daha da artırılması istiqamətində zəruri tədbirlər görülməli, qanunvericilik bazası təkmilləşdirilməlidir. Eyni zamanda həyata keçirilən vergi islahatları işgüzar fəallığı dəstəkləməli, verginin mühüm bir iqtisadi alət kimi fiskal və tənzimləyici funksiyaları bir-birilə əlaqələndirilməlidir.

Ölkə iqtisadiyyatının şaxələndirilməsi, regionların tarazlı inkişafı, özəl sektorun inkişaf etdirilməsi, sahibkarlığa dövlət dəstəyinin artırılması, qeyri-neft məhsullarnın istehsalının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi və ixracyönümlü sahələrin inkişafı məqsədilə yeni layihələr işlənib hazırlanmalıdır.

Kiçik sahibkarların maliyyə resurslarından düzgün istifadə edə bilmələri üçün uyğun şərait yaradılmalı (françayzinq və lizinqdən istifadə), kiçik və orta sahibkarların maliyyə savadlılığının artırılması istiqamətində məqsədyönlü tədbirlər görülməli, kiçik müəssisələrin dəstəklənməsi üçün vergi güzəştlərinin tətbiqi genişləndirilməlidir.

Sahibkarlığın stimullaşdırılmasının ən vacib istiqamətlərindən biri müəyyən bir dövr üçün prioritet sahələrə müxtəlif iqtisadi yardımların göstərilməsidir. Buna görə, bu sahələr dövlət tərəfindən əvvəlcədən müəyyənləşdirilməli və müəyyən müddət ərzində inkişaf etdirilməli olan iqtisadi fəaliyyət sahələri, iqtisadi rayonlar, mallar və xidmətlər nəzərə alınmalıdır.

Sahibkarlıq sahəsində dayanıqlı iqtisadi inkişafı təmin etmək üçün sahibkarların dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi, ixrac potensialının artırılması və cəmiyyətdəki sosial problemlərin həllində KOS-ların rolunun artlırılması istiqamətində daha çox işlər görülməlidir.

> *"Azərbaycanda milli innovasiya sisteminin təməli olan innovasiya infrastrukturu mühiti son illərdə nisbətən inkişaf etməkdədir. Lakin innovasiyaların infrastruktur elementləri digər qabaqcıl ölkələrlə müqayisədə məhduddur. Azərbaycan Respublikası ərazisində üç nəhəng texnologiya parkı mövcuddur ki, onlardan yalnız biri özəldir. Biznes inkubatorlarının sayı isə* olduqca məhduddur. *Yüksək texnologiyalar parkının fəaliyyət dairəsi digər innovasiya mərkəzləri kimi çoxşaxəli deyildir"* ("Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi", 2016)

Azərbaycan Respublikasında innovativ kiçik və orta sahibkarlığı stimullaşdırmaq üçün aşağıdakı tədbirlərin sürətləndirməsi məqsədəuyğun olar:

- sahibkarlıq fəaliyyətinin sahə, regional, eləcə də, texnoloji quruluşunun optimal-laşdırılması;

- kiçik, orta və iri müəssisələr arasında istehsal və kooperasiya da daxil olmaqla qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi;
- sahibkarlığa dəstək üçün müasir sahibkarlıq modelinin yaradılması, həmçinin sahibkarlar üçün məsləhət xidmətləri, məlumat dəstəyi, marketinq xidmətləri və digər strukturların yaradılması;
- məhsulların satışı üçün yarmarkaların təşkili;
- yerli iqtisadiyyatın fokuslandığı sahələri nəzərə alaraq bölgələrdə işsizlər üçün təlim mərkəzlərinin yaradılması;
- sahibkarlıq fəaliyyətinə müdaxilənin qarşısının alınması.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Aparılmış tədqiqatda kiçik və orta sahibkarlığın formalaşması və inkişaf qanunauyğunluqları, inkişaf mərhələləri, kiçik və orta sahibkarlıq subyektlərinin maliyyələşdirilməsi meyarları, kiçik və orta sahibkarlığın dövlət tənzimlənməsi imkanları, kiçik və orta sahibkarlıq miqyasında innovativ fəaliyyətin təhlili və təşviqi məsələləri araşdırılmış və aşağıdakı nəticələrə gəlinmişdir:

Kiçik və orta sahibkarlıq inkişaf etmiş ölkələrin iqtisadiyyatının əsasını təşkil edir, ÜDM-in strukturunda mühüm yer tutur və əhalinin məşğulluğunu təmin edir, dövlətlərin iqtisadi, siyasi və sosial problemlərini həll etməyə imkan verir.

Kiçik və orta sahibkarlığın iqtisadiyyatdakı əsas üstünlüyü kapital xərclərinin aşağı olması səbəbindən əhəmiyyətli məşğulluq potensialı yaratmaq qabiliyyətidir.

Kiçik və orta sahibkarlıq dinamik idarəetmə formasıdır, burada yenidən qurulma, fəaliyyətin dəyişdirilməsi, müəyyən edilmiş qaydada yeni və ləğv olunan səmərəsiz müəssisələrin yenidən yaradılması prosesləri intensiv şəkildə davam edir.

İnnovativ sahibkarlıq elmi-texniki sahədə yaradılan məhsulun iqtisadi sahədə yaradılan məhsula çevrilməsi prosesində yaranan xərclərin azaldılması zamanı sosial tələbat olaraq yaranır.

Müəssisənin innovativ fəaliyyətinin qiymətləndirilməsi innovasiyaların inkişafında müəssisənin imkanlarını xarakterizə edən müəyyən iqtisadi göstəricilərə əsaslanmalıdır. İnnovasiya strukturlarının fəaliyyətinin qiymətləndirilməsində vahid bir yanaşma yoxdur və mövcud yanaşmaların təhlili əsasında yeni metodların işlənməsinə ehtiyac vardır.

İnkişaf etmiş dünya ölkələri inovativ sahibkarlıq formalarının inkişaf etdirilməsi üçün geniş proqramlar və layihələr həyata keçirir, böyük maliyyə vəsaitlıri ayırırlar.

Azərbaycanda bu sahənin araşdırılması göstərir ki, müstəqillik əldə olunduqdan bəri kiçik və orta sahibkarlıq müəssisələrinin, eləcə də innovativ sahibkarlığın inkişaf etdirilməsi üçün görülmüş işlərə baxmayaraq inkişaf lazımi

səviyyədə və mövcud potensiala uyğun deyil. Xüsusən ölkənin regionlarında bu sahədə həll olunması vacib olan bir çox problemlər vardır.

Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin sayı artsa da, onların ölkə iqtisadiyyatına verdiyi töhfələr o qədər də böyük deyil. KOS-ların inkişafına mane olan amillərdən biri maliyyə mənbələrinə zəif çıxışdır.

Ölkədə fəaliyyət göstərən kiçik və orta müəssisələr maliyyə mənbəyi kimi əsasən bank kreditlərinə üstunlük verirlr. Lakin yüksək kredit faizləri və güzəşt müddətinin az olması KOS-ların bu mənbələrə çıxışını zəiflədir.

Kiçik və orta sahibkarlıq miqyasında innovativ sahibkarlığın tədqiqi onu göstərir ki, bu sahə dünya təcrübəsindən çox geridə qalmışdır. Tətbiq olunan innovasiyaların qiymətləndirilməsi mexanizmi yoxdur və buna görə də onların effektivliyi barədə fikir söyləmək çətindir.

Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı hal-hazırda dövlətin də gündəmində olan ən vacib məsələlərdən biri olaraq dəyərləndirilir və bu ən yüksək səviyyəli dövlət proqramlarında, strateji planlarda öz əksini tapmışdır. Dövlət artıq bu sahədə bir sıra əhəmiyyətli addımlar da atmışdır. Bununla belə, ölkədə sahibkarlıq və innovasiya infrastrukturu yetəri qədər güclü deyildir. Atılan addımların effektiv olması üçün problemə kompleks yanaşma, sahibkarlıqla paralel olaraq əlaqəli sahələrin inkişafı, hərtərəfli infrastruktur quruculuğu tələb olunur. Unutmamaq lazımdır ki, iqtisadiyyatın bütün sahələri bir biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir və innovativ sahibkarlığın inkişafı elm və innovasiya, təhsil, maliyyə və ticarət infrastruktur gücləndirilmədən, müvafiq qanunvericilik bazası formalaşdırılmadan mümkün deyildir

Hesab olunur ki, Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığı stimullaşdırmaq üçün aşağıdakı tədbirlərin sürətləndirməsi məqsədəuyğun olar:

- sahibkarlıq fəaliyyətinin sahə, regional və texnoloji quruluşunun optimallaşdırılması;
- ölkədə kiçik və orta sahibkarlığın cari vəziyyətinin ətraflı təhlil olunması məqsədilə hal-hazırda fəaliyyət göstərən kiçik və orta sahibkarlıq

subyektlərinin də iştirakı ilə işçi qrupun yaradılması, yerli faktorları nəzərə almaqla sahənin inkişafı üçün tədbirlər planının hazırlanması;

- kiçik, orta və iri müəssisələr arasında istehsal və kooperasiya da daxil olmaqla qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi;
- sahibkarlığa dəstək üçün müasir sahibkarlıq modelinin yaradılması, həmçinin sahibkarlar üçün məsləhət xidmətləri, məlumat dəstəyi, marketinq xidmətləri və digər strukturların yaradılması və koordinasiya edilməsi;
- yerli iqtisadiyyatın fokuslandığı sahələri nəzərə alaraq paytaxtda və bölgələrdə xarici mütəxəssislərin də cəlbi ilə kiçik və orta sahibkarlıq istiqamətində təlim proqramları həyata keçirən təlim və inkişaf mərkəzlərinin yaradılması və xüsusilə gənclərin təlimlərə cəlb olunması;
- dövlət tərəfindən həyata keçirilən xaricdə təhsil proqramlarında sahibkarlıq və innovasiya yönümlü ixtisaslara yer ayrılması və üstünlük verilməsi; innovativ sahibkarlıq istiqamətində uzunmüddətli təhsil proqramlarının işlənib hazırlanması, o cümlədən, yerli universitetlərdə müvafiq ixtisas və ixtisaslaşmalar üzrə xüsusi qrupların yaradılması;
- innovativ sahibkarlığa əlavə vergi güzəştlərinin tətbiq olunması, dövlət-özəl tərəfdaşlığı ilə güzəştli kredit məhsulları kimi maliyyələşmə vasitələrinin formalaşdırılması, o cümlədən, bu sahədə genişmiqyaslı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi;
- texnoparkların yaradılması və fəaliyyətlərinin genişləndirilməsi, inkubasiya və akselerasiya mərkəzlərinin fəaliyyət dairəsinin genişləndirilməsi;

Sahibkarlığın stimullaşdırılmasının ən vacib istiqamətlərindən biri müəyyən bir dövr üçün prioritet sahələrə müxtəlif iqtisadi yardımların göstərilməsidir. Buna görə, bu sahələr dövlət tərəfindən əvvəlcədən müəyyənləşdirilməli və müəyyən müddət ərzində inkişaf etdirilməli olan iqtisadi fəaliyyət sahələri, iqtisadi rayonlar, mallar və xidmətlər nəzərə alınmalıdır.

Cari ildə çox qısa bir müddət ərzində bütün dünyada sürətlə yayılaraq dünya iqtisadiyyatını əhəmiyyətli dərəcədə sarsıdan koronavirus (COVID-19) pandemiyası qlobal bazarda yeni meyillərin yaranması ilə nəticələnmişdir.

Ekspertlər pandemiya aradan qalxsa belə iqtisadi-sosial təsirlərinin ən az 10 ilədək davam edəcəyini, bir qisim ekspertlər isə, ümumiyyətlə, təsirlərin qalıcı olacağını bildirirlər. Bunları nəzərə alaraq dəyişən bazar şəraitlərinə çevik uyğunlaşa bilən, bazarın tələblərini qısa bir müddət ərzində qarşılaya bilmə qabiliyyətinə malik, dünya iqtisadiyyatında baş verən dəyişikliklərə uyğunlaşaraq ölkə iqtisadiyyatlarının dayanıqlılığını təmin edə biləcək olan kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətlərinin genişləndirilməsi, onların innovativ fəaliyyətə cəlb olunması, eləcə də bu fəaliyyətlərin dövlət tərəfindən müxtəlif mexanizmlərlə təşviq olunması "Koronavirus" və "Post-Koronavirus" dövrlərində müstəsna əhəmiyyət daşıyır.

Sahibkarlıq sahəsində dayanıqlı iqtisadi inkişafı təmin etmək üçün sahibkarların dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi, ixrac potensialının artırılması və cəmiyyətdəki sosial problemlərin həllində KOS-ların rolunun artlırılması istiqamətində daha çox işlər görülməlidir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair strateji yol xəritəsi” (2016)
2. “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” (2016)
3. Azərbaycan Respublikasinin Nazirlər Kabinetinin “Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları”nın təsdiq edilməsi haqqında” 21 dekabr 2018-ci il tarixli, 556 nömrəli Qərarı
4. “Azərbaycanın statistik göstəriciləri 2018-2019”. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.
5. Abasova S., Azərbaycanda innovasiya sahibkarlığının problemləri və inkişaf istiqamətləri, AMEA-nın xəbərləri: İqtisadiyyat, 2010, səh. 31-35
6. Əhmədov M.A., Hüseyn A.C., (2011) İqtisadiyyatın dövlət tənzimləməsinin əsasları, Metodiki vəsait, Bakı, 120 səh.
7. İsmayılov A., Alıyev X. Ə. İnnovasiya əsaslı iqtisadi inkişaf və dövlət təşviqlərinin əhəmiyyəti, Qafqaz Universiteti Jurnalı, 2013, №. 2
8. Kazımov V. Ə. Müasir şəraitdə innovasiya sahibkarlığının vəziyyəti və perspektivləri, AMEA-nın xəbərləri: Elm və İnnovasiya, 2010, №. 1, səh. 77-81.
9. Mahmudova L., (2019), Dövlətin İnnovasiya Siyasəti və İnnnovasiya Proseslərinin Formalaşmasına Strateji Yanaşmalar, “Geostrategiya” Jurnalı №01 (49).
10. Qasımov F. H. Azərbaycanda innovasiyanın vəziyyəti və onun inkişaf perspektivləri, AMEA-nın xəbərləri: Elm və İnnovasiya, 2009, №. 1, səh. 4-10.
11. Tağıyev A.H., Aslanzadə İ.A. (2017) İnnovasiya menecmenti. I hissə. Bakı, 368 s.

**Rus dilində**

1. Абдибеков С.У., Беделбаева А.Е., Мировые тенденции развития предпринимательской деятельности в экономике зарубежных стран, Вестник КазЭУ, Алматы, 2015, https://articlekz.com/article/15307

2. Гачегов М.А., Охрименко А.В. Малое и среднее предпринимательство в России в 2017 году: состояние сектора, система государственной поддержки, Российское предпринимательство. 2018. № 12. С. 38-91.

3. Городничая Е. И. (2011) Государственное Стимулирование Малого Инновационного Бизнеса В Зарубежных Странах, Москва, стр. 48-80

4. Гунин В.Н. и др. (1999) Управление инновациями: 17-модульная программа для менеджеров. Модуль 7, «ИНФРА-М», 328 с.

5. Камоликова, Т. (2009) Малое предпринимательство в воспроизводственном процессе экономики России, «ИНФРА-М», 242 с.

6. Курманов Н.А., Рахимбекова А.Е., Айбосынова Д.А., Инновационное предпринимательство как фактор устойчивого и гармоничного развития экономики, Вестник КазЭУ, Алматы, 2016.

7. Краснов И. Роль малых и средних предприятий в мировой экономике, Проблемы теории и практики управления, 2013, №. 1, Стр. 38-46.

8. Крутик, А., Решетова М. (2009) «Предпринимательская деятельность» Москва, "Академия", 224 с.

9. Переверзев М., Лунева А. (2017) « Предпринимательство и бизнес». Москва. Инфра-М, 560 с.

10. Петрович Н.К «Основы малого и среднего предпринимательства» Москва., Инфра-М., 2012, 446с

11. Сташков С., Мрочковский Н. (2012) « 99 инструментов продаж. Эффективные методы получения прибыли» Санкт – Петербург, Инфра-М, 368 стр.

12. Сяомэй Л. Малый и средний бизнес в условиях глобализации мировой экономики, Вестник ГГТУ им. П. О. Сухого, 2014. № 2 (57), Стр. 90.

13. Трифилова А.А., (2005) Оценка эффективности инновационного развития предприятия, Москва, 146 стр.

14. Хрупин И.М., Стимулирование развития предпринимательства на основе мотивационной структуры предпринимательской деятельности, Российское предпринимательство, 2012, № 14, 23-30.

**İngilis dilində**

1. Apanasovich N., Heras H.A. and Parrilli M.D., (2016). The impact of business innovation modes on SME innovation performance in post-Soviet transition economies: The case of Belarus. Technovation, 57, pp.30-40.

2. Klonowski D. (2012) Innovation propensity of the SME sector in emerging markets: evidence from Poland, Post-Communist Economies, 24(1), 133-143

3. Foreman-Peck J. (2013). Effectiveness and efficiency of SME innovation policy. Small Business Economics, 41(1), 55-70.

**İnternet resursları**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin rəsmi internet saytı, https://cabmin.gov.az/az/document/3251/

2. Mikro, kiçik və orta sahibkarlıq sistemlərinin əsas makroiqtisadi göstəriciləri, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet saytı, www.stat.gov.az/source/entrepreneurship/az/002.xls

3. Qırğızıstan Respublikası İqtisadiyyat Nazirliyinin rəsmi internet saytı: http://mineconom.gov.kg/ru/discussion/18

4. Avropa Birliyi Kiçik və Orta Biznes Mərkəzi, Çində Kiçik və Orta Sahibkarlıq: Siyasət mühiti hesabatı, 2018, https://www.eusmecentre.org.cn/sites/

default/files/files/job/2018%20SMEs%20in%20China%20Policy%20Environment%20Report.pdf

5. Belarus Respublikasının Prezidenti yanında Sahibkarlığın İnkişafı Şurası, http://ced.by/ru/publication/~shownews/2019-09-25-msp

6. Rusiya Kiçik və Orta Sahibkarlığın İnkişafı üzrə Federal Korporasiya, https://corpmsp.ru/about/info/years-2017

7. МСП Банк: Развитие малого и среднего предпринимательства. Зарубежный опыт (2015) стр. 16, https://www.mspbank.ru/userfi

8. Swiss SMEs. An analysis of the latest figures - 2016 edition: https://www.alexandria.unisg.ch/246207

9. Annual Report on European SMEs 2014/2015. http://ec.europa.eu/enterprise/policies/sme/facts-figures-analysis/performance-кeview/files/supporting-documents/2014/annual-report-smes-2014_en.pdf

10. Eurostat: Structural Business Statistics, Small and medium-sized enterprises (SMEs) (2017) http://ec.europa.eu/eurostat/web/structural-business-statistics/structural-business-statistics/sme

## Cədvəllərin siyahısı


**Cədvəl 1:** Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları......... 14

**Cədvəl 2:** İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə kiçik müəssisələrin fəaliyyətinin əsas göstəriciləri........................................................................................ 18

**Cədvəl 3:** Avropa Birliyindəki mikro, kiçik və orta müəssisələr üçün müəyyənedici xüsusiyyətlər........................................................................................ 18

**Cədvəl 4:** Kiçik və orta sahibkarlığın inkişaf istiqamətləri və ayrı-ayrı ölkələrin milli iqtisadiyyatına verdiyi töhfələr................................................................... 20

**Cədvəl 5:** 2006–2015-ci illərdə maliyyələşmə imkanlarının artırılması baxımından KOS-lara dövlət dəstəyi............................................................................. 22

**Cədvəl 6:** 2011-ci ildən 2015-ci ilə qədər Fransada KOS-ların maliyyələşdirilməsi.... 23

**Cədvəl 7:** 2010 - 2015-ci illər arasında İsveçrə iqtisadiyyatında müxtəlif növ müəssisələrin rolu........................................................................................ 24

**Cədvəl 8:** 2011-ci ildən 2015-ci ilə qədər İsveçrədə KOS-ların maliyyələşdirilməsi... 24

**Cədvəl 9:** Belorus respublikasında 2017-2018-ci illərdə mövcud olan KOS-ların sayı 29

**Cədvəl 10:** Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makro-iqtisadi göstəriciləri........................................................................................ 68

**Cədvəl 11:** Ölkə iqtisadiyyatında mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payı.. 69


## Qrafiklərin siyahısı


**Qrafik 1:** Rusiya Federasiyasında KOS-ların sayının artım dinamikası..................... 28

**Qrafik 2:** Qazaxıstanda 2005-2014-cü illər arasında aktiv və qeydiyyat keçmiş KOS subyektlərinin artım tempinin dinamikası.................................................... 30